www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 avqust 2017-ci il Çərşənbə axşamı № 179 (6793) Qiyməti 60 qəpik

**Xəbər**

**İsmayıllıda məhv edilən terrorçu ilə bağlı ilginc məlumatlar**

yazısı səh.14-də

**Gündəm**

**Erməni tarixçi soyqırım iddialarını və "erməni böyüklüyü" mifini darmadağın elədi**



**Filipp Ekozyants:** "Ermənilər olmayan bir tarix icad edib öz virtual aləmlərində yaşayırlar..."

yazısı səh.9-da

**Elçibəyin cənazəsi ilə birgə Bakıya bir çanta pul gətirilibmiş**

yazısı səh.5-də

**Ağdaşın icra başçısı müavininin oğlu həbs olundu - avtoxuliqanlığa görə**

yazısı səh.2-də

**Nazirlik Ququşun ittihamlarına cavab verdi - rəsmi açıqlama**

yazısı səh.3-də

**Nazpərinin evini yağmalayanlar həbs edildi**

yazısı səh.2-də

**Sabiq nazirin əmisi oğlu həbsdən necə qurtuldu...**

yazısı səh.6-da

**Tərtərdə ermənidən aldığımız kənddə düşmən üçün göz dağı**

yazısı səh.7-də

**Qərb 400 min insanı öldürən Başər Əsədi bağışlayır - səbəb...**

yazısı səh.10-da

**Bank sektorunda böhran davam edir**

yazısı səh.7-də

**Bakıda tələbə faciəvi şəkildə öldü**

yazısı səh.14-də

**Qarabağda status-kvonun qorunması üçün daha bir cəhd**

yazısı səh.11-də

**Bakıdan başqa ölkəyə 29 avroya uçmaq mümkün olacaq**

yazısı səh.12-də

# ƏRDOĞANIN BAKI VƏ TEHRANA KRİTİK SƏFƏRİ - ƏSAS HƏDƏF

Üç paytaxtın ortaq "qırmızı xətt"i; Türkiyə, İran və Azərbaycan bölgə təhlükələrinə qarşı daha sinxron siyasət yürütmək zorundadır...




yazısı səh.8-də

## "Dirçələn" Eldar Mahmudov "zon"dakı qudasına niyə yiyə durmur - üç sensasion səbəb

Sabiq nazirin oğlunun biznesini genişləndirməsi xəbərindən sonra onun əmisi oğlu da məhkəmə zalından azadlığa buraxıldı; yaxın ətrafının işləri qaydasına düşdüyü vaxtda Cahangir Hacıyev ən ağır şəraitli "zon"da əziyyət çəkir

yazısı səh.6-da



*Asim Mollazadə:*

**"Testlə bağlı qərarlar korrupsiya sistemini yenidən universitetlərə qaytarmamalıdır"**

yazısı səh.4-də



*Tural Abbaslı:*

**"Meydan hərəkatından çıxan liderlərin hamısı etibardan düşüb"**

yazısı səh.5-də



*Eyyub Hüseynov:*

**"İnfrastruktur o qədər köhnəlib ki, yağış, çirkab suları içməli su xəttinə qarışır"**

yazısı səh.13-də



## Prezident Astarada yol tikintisinə 8.5 milyon manat ayırdı

**Prezident İlham Əliyev Astara rayonunun Taxtanəkəran-Miki və Taxtanəkəran-Toradi avtomobil yollarının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın xəbərinə görə, sərəncama əsasən, on iki min nəfər əhalinin yaşadığı 38 yaşayış məntəqəsini birləşdirən Taxtanəkəran-Miki və Taxtanəkəran-Toradi avtomobil yollarının tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,5 milyon (səkkiz milyon beş yüz min) manatı "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

Maliyyə Nazirliyinə göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## AMEA-nın keçmiş şöbə müdiri dələduzluğa görə tutuldu




**AMEA Fəlsəfə və hüquq İnstitutunun keçmiş şöbə müdiri, hüquq elmləri üzrə fəlsəfə doktoru Xaliq Əhmədzadənin həbs edilməsi ilə bağlı xəbər yayılıb.**

Musavat.com AFN.az-a istinadən məlumat verir ki, bu barədə AMEA-nın əməkdaşı Rüşan Rüşanzadə bildirib. Onun sözlərinə görə, X.Əhmədzadə dələduzluqda ittiham olunur və onun barəsində Nəsimi Rayon Məhkəməsi tərəfindən 4 aylıq həbs-qətimkan tədbiri seçilib.

## Qurban bayramında geomaqnit qasırğası olacaq - xəbərdarlıq

**"Hazırda Günəşin görünən diskində 22 günəş ləkəsi müşahidə olunur. Bunlar 2 ləkə qrupunda birləşiblər. 2672 nömrəli ləkə qrupu böyük olsa da - Yer səthindən hansısa tutqun şüşə ilə baxdıqda bu ləkə qrupunu adi gözlə də görmək olar - güclü Günəş alışmalarını generasiya etməyə qadir deyil".**

Bunu APA-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) N. Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının elmi işlər üzrə direktor müavini Elçin Babayev deyib.

O, Günəşin səthində böyük ölçüyə malik növbəti tac dəliyinin formalaşdığını qeyd edib.

E. Babayevin sözlərinə görə, tac dəliyindən yüksək sürətli Günəş küləyi (yüklü zərrəciklərdən ibarət plazma) öz başlanğıcını götürərək planetlərarası fəzaya, o cümlədən Yerə doğru yönəlmiş olur. Direktor müavini vurğulayıb ki, tac dəliyindən "əsən" Günəş plazma küləyinin təsirlərinin 1-2 sentyabr tarixlərində Yerə çatması gözlənilir: "Həmin plazma küləyi Yer maqnetosferində həyəcanlaşma yaradacaq və nəticədə hətta zəif səviyyəli geomaqnit qasırğası da gözlənilir. Əslində burada qeyri-adi heç nə yoxdur. İl ərzində 2 dəfə - yaz və payız gecə-gündüz bərabərliyi nöqtələri ətrafında geomaqnit qasırğalarının intensivliyi və gücü artır, daha çox qütb parıltıları müşahidə olunur".

E. Babayev vurğulayıb ki, sentyabrın 1-2-də müşahidə olunacaq budəfəki geomaqnit qasırğasının səbəbi bilavasitə Günəş alışması yox, tac dəliyindən başlanğıcını götürən Günəş plazma küləyi olacaq.

Onun sözlərinə görə, planetlərarası maqnit sahəsinin Z komponentinin istiqaməti cənubu göstərərsə, o zaman həyəcanlaşma daha da güclü olacaq: "Bu gün üçün geomaqnit həyəcanlaşmasını xarakterizə edən əsas Kp indeksinin qiyməti 1-3 arasında dəyişir. Hesab edirik ki, sentyabrın 1-2-də bu qiymət qalxacaq. Kosmik hava sentyabrın əvvəlinədək stabil vəziyyətdə olacaq. Hazırda atmosfer təzyiqi də normaldır".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Türkmənistan səfiri XİN-ə çağırılacaqmı...

**Hikmət Hacıyev:** "Ermənistanın bütün xarici siyasət fəaliyyəti tərəfimizdən çox dəqiqliklə və diqqətlə izlənilir"

**Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun ötən həftə Ermənistana səfər etməsi Azərbaycan ictimaiyyətində narazılıqla qarşılanıb. İctimaiyyətin ayrı-ayrı kəsimlərinin təmsilçiləri Azərbaycanın ərazilərini işğal edən, hər gün Azərbaycana qarşı düşmənçiliyini davam etdirən işğalçı Ermənistana bir türk dövlətinin başçısının rəsmi səfərə getməsini türk dünyasına xəyanət, eyni zamanda Azərbaycanla qardaşlığa arxadan vurulan zərbə kimi qiymətləndirirlər.**



Q.Berdiməhəmmədovun ünvanına sosial şəbəkələr və mətbuatda sərt ifadələr səsləndirilir. Xüsusilə bir türkdilli ölkə rəhbərinin bu cür mövqe sərgiləməsi sərt şəkildə qınanır. Türkmənistan rəhbərliyi Türkiyədən və Özbəkistandan nümunə götürməyə çağırılır. Eyni zamanda belə fikirlər də səsləndirilir ki, Türkmənistanla ortaq enerji layihələri olan rəsmi Bakı bu nüansdan istifadə edərək, bu dövlətə yerini göstərməlidir, susqunluq nümayiş etdirilməməli, ən azından Türkmənistanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət edilməli və Azərbaycanın narazılığı rəsmi şəkildə çatdırılmalıdır.

Bəs Azərbaycan Xarici İşlər Nazirliyi məsələyə necə yanaşır, Türkmənistan səfirinin nazirliyə dəvət edilməsi gözlənilirmi?

**Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev "Yeni Müsavat"ın sualına belə cavab verdi:** "Səslənən bu kimi fikirlər barədə bir söz deyə bilmərəm. Onu deyə bilərəm ki, Azərbaycanla Türkmənistan arasında əlaqələr inkişaf edir. Türkmənistan prezidentinin avqustun 9-da Azərbaycana səfəri və iki ölkənin dövlət başçıları tərəfindən qəbul edilən birgə bəyanatlarda ölkələrimiz arasında dostluq münasibətləri bir daha təsdiqini tapmış oldu".

**"Türkmənistan prezidentinin Ermənistana səfərini Azərbaycan Xarici İşlər Nazirliyi izlədimi?" sualına isə Hikmət Hacıyev belə münasibət bildirdi:** "Ermənistanın, ümumiyyətlə bütün xarici siyasət fəaliyyəti tərəfimizdən çox dəqiqliklə və diqqətlə izlənilir".

❑ **Etibar SEYİDAĞA**



## Ağdaşın icra başçısı müavininin oğlu həbs olundu

**Avqustun 27-də, saat 00:35-də Ağdaş şəhər sakini, 1990-cı il təvəllüdlü İlqar Həsənov idarə etdiyi və özünə məxsus olan "Infiniti FX35" markalı 90-ZM-111 dövlət qeydiyyat nişanlı avtomobillə Ağdaş şəhəri ərazisində hərəkətdə olarkən idarəetməni itirərək mağazanın qarşısındakı soyuducu kameralara, daha sonra işıq dirəyinə və 5 saylı orta məktəbin daş hasarına dəyməklə yol-nəqliyyat hadisəsi törədib.**

Baş Prokurorluqdan musavat.com-a bildirilib ki, hadisə ilə əlaqədar Ağdaş Rayon Polis Şöbəsinin Dövlət Yol Polis Bölməsinin apardığı araşdırma nəticəsində İ. Həsənov nəqliyyat vasitəsini idarə etmək hüququna malik olsa da, avtomobili sərxoş vəziyyətdə idarə etdiyi müəyyənləşib. Hadisə zamanı İ. Həsənov avtomobildə tək olub və heç bir xəsarət almayıb.

Yol-nəqliyyat hadisəsi nəticəsində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan Şahin İbrahimova və "Mərkəzi Aran" Regional Enerji Təchizatı və Satışı İdarəsinin Ağdaş Elektrik Şəbəkəsinə maddi ziyan dəydiyindən İ. Həsənovun barəsində İnzibati Xətalar Məcəlləsinin 333.3-cü (Nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxs tərəfindən nəqliyyat vasitəsini alkoqoldan istifadə olunması nəticəsində sərxoş vəziyyətdə idarə edilməsi, zərər çəkmiş şəxsə maddi zərər vurduqda) maddəsinə əsasən inzibati xəta haqqında protokol tərtib olunub.

Ağdaş Rayon Məhkəməsinin qərarı ilə İ. Həsənov İnzibati Xətalar Məcəlləsinin qeyd edilən maddəsi ilə təqsirli bilinib nəqliyyat vasitəsini idarə etmək hüququ 2 il müddətinə məhdudlaşdırılmaqlab 30 gün müddətinə inzibati həbs edilib.

Qeyd edək ki, İ. Həsənov Ağdaş Rayon İcra Hakimiyyəti başçısının müavini Əsgərxan Həsənovun oğludur.

## Nazpərinin evini yağmalayanlar həbs edildi

**Bakı və Sumqayıt şəhəri ərazisində 10-a yaxın dövlət müəssisəsi və özəl şirkətlərdən silsilə seyf oğurluqları törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş Rafiq Məmmədov, Qadir Əliyev, Rauf İbrahimov və Abşeron rayon sakini Amil Cavadov saxlanılıblar.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, araşdırmalar zamanı bu şəxslərin Bakı və Sumqayıt şəhərlərində oğurladıqları seyflərdən külli miqdarda maddi vəsait götürdükləri keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində məlum olub.

Göstərilən faktlarla əlaqədar Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb. Hazırda həmin işlər üzrə intensiv istintaq tədbirləri davam etdirilir.

Zərərçəkənə külli miqdarda ziyan vurmaqla törədilən sonuncu belə oğurluq hadisələrindən biri Nərimanov rayonu ərazisində baş verib.

Avqustun 19-da naməlum şəxs və ya şəxslər Bakı şəhəri Nərimanov rayonunda yaşayan Nazpəri Dostəliyevanın mənzilinə açarseçmə üsulu ilə qanunsuz daxil olaraq içərisindən külli miqdarda qızıl-zinət əşyaları və pul olan dəmir seyfi oğurlayıblar.

Polis əməkdaşları tərəfindən isti izlərlə və yüksək peşəkarlıqla həyata keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində qeyd edilən cinayət hadisəsinin Sumqayıt şəhər sakinləri əvvəllər məhkum olunmuş Ruslan Verdiyev, Yunis Hüseynli və Asif Həmidov tərəfindən törədildiyi müəyyən edilib.

Əməliyyat-istintaq tədbirlərinin davamı olaraq dəstə üzvlərindən R.Verdiyev, Y.Hüseynli və A. Həmidov saxlanılıblar. Dəstə üzvləri seyfin içindən götürülən pulu və qızıl-zinət əşyaların satışından əldə olunan maddi vəsaiti öz aralarında bölüblər.

Həmçinin müəyyən edilib ki, həmin şəxslər seyfi bir gün sonra Sumqayıt şəhəri ərazisindən keçən kanala atıblar. Baxış zamanı seyf qeyd edilən həmin kanaldan aşkar olunaraq götürülüb.

Əlavə tədbirlərlə dəstə üzvü A.Həmidovun avtomobilindən, Y.Hüseynli və R. Verdiyevin yaşadıqları ünvanlardan narkotik vasitə olan heroin götürülüb.

Qeyd edilən faktla bağlı Nərimanov RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb.

Hazırda cinayətin törədilməsində iştirak edən dəstənin digər üzvlərinin tutularaq istintaqa cəlb olunmaları, habelə maddi sübutların aşkar edilərək götürülməsi istiqamətində zəruri istintaq hərəkətləri, eləcə də təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri davam etdirilir.



## Qənirə Ataşova ABŞ-a köçdü, dostlarını blok etdi...

**Fəaliyyəti dayandırılmış ANS televiziyasının qalmaqallı aparıcısı Qənirə Ataşova Amerika Birləşmiş Ştatlarına (ABŞ) köçüb. Teleaparıcının ABŞ-a köçməsi isə bu ölkədə təhsil alması ilə bağlıdır. Bu barədə gununsesi.info saytı məlumat yayıb.**

Məsələyə aydınlıq gətirmək üçün musavat.com-un əməkdaşı teleaparıcı ilə əlaqə saxlamağa çalışıb. Lakin Qənirə Ataşova əməkdaşımızın suallarını cavabsız qoyub. O da məlum olub ki, teleaparıcı ABŞ-a köçər-köçməz facebook sosial şəbəkəsindəki əksər dostlarını, xüsusən də jurnalistləri blok edib.

Xatırladaq ki, ötən ilin oktyabrında İstanbuldan iş təklifi alan teleaparıcı ölkəni tərk etmək istəyərkən Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən saxlanılıb və ona ölkədən çıxışına qadağa qoyulduğu bildirilərək, geri qaytarılmışdı. Buna səbəb isə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində "Gülən işi" ilə əlaqədar cinayət işinin açılması olmuşdu. Qənirə Ataşova ölkədən çıxışına qoyulan məhdudiyyətin götürülməsi ilə bağlı ölkə rəhbərliyinə müraciət etmişdi. Eyni zamanda Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsi qarşısında ölkədən çıxışına qoyulan məhdudiyyətin götürülməsi ilə bağlı vəsatət qaldırmışdı. Beləliklə, sonradan teleaparıcının ölkə çıxışına qoyulan qadağa aradan qaldırılmışdı.

Xatırladaq ki, Q.Ataşova Türkiyədəki 15 iyul çevriliş cəhdi zamanı bu olayın arxasında dayanan Fətullah Güləndən açıqlama almışdı.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 179 (6793) 29 avqust 2017

# Nazirlik Ququşun ittihamlarına cavab verdi - rəsmi açıqlama

## Müğənni Bakıya gələ bilmədiyi üçün nazirliyi günahlandırdı, qarşı tərəf isə...

**Azərbaycan əsilli İran müğənnisi Ququşun (Faiqə Atəşin) Azərbaycanın mədəniyyət və turizm naziri haqqında səsləndirdiyi ittihamlar geniş müzakirələrə səbəb olub. Müğənni virtualaz.org saytına açıqlamasında bildirib ki, zamanında Bakıda konsert vermək istəyərkən Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin şəxsində ona rədd cavabı verilib və konsert qadağan olunub: "Tədbirin təşkilatçıları mənə bildirdilər ki, Azərbaycanın mədəniyyət naziri Bakıda konsertin keçirilməsinə icazə verməyib, çünki mənim ərim erməni millətinin nümayəndəsidir. Amma axı mən azərbaycanlıyam?! Bundan başqa, musiqi və yaradıcılıq - millətçilikdən üstündür! Mən hiddətlənmişəm!"**



Həmçinin Ququşun Bakıdakı konsertinin təşəbbüskarlar və təşkilatçıları müğənninin Bakıya baş çəkmək və Azərbaycanın paytaxtında böyük konsertlə çıxış etmək arzusunda olduğunu bildiriblər.

**Müğənninin ittihamları ilə bağlı Mədəniyyət və Turizm Nazirliyi artıq bəyanat yayıb. Bəyanatda bildirilir:** "Son günlər bəzi kütləvi informasiya vasitələrində müğənni Ququşun (Faiqə Atəşin) Azərbaycanda konsertinin təşkil olunmasına icazə verilməməsi ilə bağlı sensasiya xarakterli məlumatlar yer alıb. Mətbuatda yazılanlarla əlaqədar bildiririk ki, müğənninin Azərbaycanda konsertinin təşkil olunması ilə bağlı nazirliyə müraciət daxil olmamışdır. İlk növbədə onu qeyd etmək istəyirik ki, Mədəniyyət və Turizm Nazirliyi, mərkəzi icra hakimiyyəti orqanı olaraq ölkəmizdə kommersiya məqsədilə keçirilən konsert proqramlarının təşkilatçısı qismində çıxış etmir.

Bu cür kommersiya məqsədli, yerli və xarici müğənnilərin iştirakı ilə konsert proqramları ölkəmizin müvafiq qanunvericiliyinə uyğun olaraq özəl qurumlar və prodüser mərkəzləri tərəfindən təşkil oluna bilər. Buna misal olaraq, son illər paytaxt Bakıda, eləcə də bir sıra şəhər və rayonlarımızda xarici populyar müğənnilərin konsert proqramlarının keçirilməsini nümunə kimi göstərə bilərik. Ölkəmizdə öz tamaşaçı auditoriyası olan istənilən əcnəbi müğənninin də konsertinin təşkil olunmasına nazirlik olaraq hörmətlə yanaşırıq.

Eyni zamanda diqqətə çatdırırıq ki, Mədəniyyət və Turizm Nazirliyinin strukturuna daxil olan və daxil olmayan konsert salonlarında tədbirlərin təşkili həmin müəssisə və prodüser mərkəzləri arasında bağlanılmış müqavilə əsasında müvafiq vergi, icarə və digər təşkilatı xərclər ödənilməklə həyata keçirilir. Bunun üçün Mədəniyyət və Turizm Nazirliyindən rəsmi icazə alınması tələb olunmur.

Qeyd edək ki, nazirlik tərəfindən Azərbaycan mədəniyyətinin, milli irsinin ölkə daxilində, eləcə də xaricdə tanıdılması və təbliğ edilməsi məqsədilə dövlət əhəmiyyətli tədbirlər, konsertlər təşkil olunur.

Bəzi kütləvi informasiya vasitələrinə sensasiya xatirinə dövlətlərarası münasibətlərə xələl gətirəcək addımlardan çəkinməyi, peşəkar jurnalistika prinsiplərindən uzaqlaşmamağı tövsiyə edirik".

Xatırladaq ki, 2011-ci ildə Ququş Bakıda konsert proqramı ilə çıxış etməli idi. Lakin son anda konsert təxirə salınmışdı. Yayılan şayiələrə görə, sənətçinin erməni sevgilisi (əri) onu bu səfərdən çəkindirib. Həmin ərəfədə ifaçının Azərbaycana qastrol səfərinin təşkilatçılığı ilə məşğul olan İran vətəndaşı, təbrizli Salman Pişnamaz bildirmişdi ki, Ququşun erməni sevgilisi özünün gedə bilmədiyi heç bir səfərə müğənnini buraxmır. Digər iddialara görə isə sənətçi əvvəlcədən Ermənistana səfər edəcəyini planlaşdırdığı üçün bu günə qədər ölkəmizə gəlməkdə tərəddüd edir. Onun ansamblında musiqiçilərin böyük əksəriyyətinin erməni olduğu da bildirilir.

Onu da xatırladaq ki, Ququş 31 avqust tarixində Ermənistanda, 3 sentyabr tarixində isə Tiflisdə konsert verəcək. Onun Cənubi Qafqaz turunda Azərbaycanın adının olmaması ölkəmizdə böyük etirazla qarşılanıb.

❑ Xalidə GƏRAY

# Çexiyada öldürülən azərbaycanlı biznesmenin qətli müəmma olaraq qalır

## Rəşad Qafarovun ölümündən iki ay ötsə də, onun qatilinin izinə belə düşülməyib

**Biznеslə məşğul olduğu Çexiya paytaxtı Praqada iyunun 30-da öz avtomobilində ölü tapılan azərbaycanlı iş adamı, "TERN Transport & Trading CZ" şirkətinin baş direktoru Rəşad Qafarovun ölümünün üstü açılmaq bilmir. Aldığımız məlumata görə, iş üzrə istintaq tədbirlərinin çox ləng getməsi mərhumun yaxınlarının narazılığına səbəb olub. Onlar Azərbaycanın Çexiyadakı səfirliyinə də bu haqda bildiriblər.**



R.Qafarov "TERN Transport & Trading CZ" şirkəti ilə yanaşı, "TERN Transport & Trading AZ" şirkətinin də sahibi olub. Birinci şirkət əsasən Avropa ərazisində beynəlxalq yükdaşımaları, ikincisi isə Azərbaycan yerli və beynəlxalq yükdaşımaları həyata keçirməkdədir.

Rəşad Qafarovun ölümündən sonra onun Azərbaycandakı şirkətində müavini olan Mübariz Süleymanov "Yeni Müsavat"a açıqlamasında demişdi ki, mərhumun düşməni olmayıb. 10 ilə yaxın Çexiyada yaşayan R.Qafarov orada kiminləsə problem yaşamayıb. Şirkəti beynəlxalq yükdaşımaları ilə məşğul olub, İngiltərədən Çexiyaya, Çexiyadan İtaliyaya, Azərbaycana və digər ölkələrə yüklər daşıyıb.

"Qətl şəxsi münasibətlər zəminində baş verə bilərdimi" sualına isə M.Süleymanov belə bir cavab vermişdi.

**Sitat:** "Rəşad ibadət əhli idi, gözəl insan idi. Onun ölümü hamımızı sarsıdıb. Onun kimsə ilə problemi olmayıb. Yaxşı ailəsi, övladları vardı".

M.Süleymanov R.Qafarovun beynəlxalq yükdaşımalar və logistika biznesində Azərbaycanın Praqadakı səfiri Fərid Şəfiyevlə ortaq olması haqda bunları deyib: "Rəşad həmin şirkəti sıfırdan özü yaratmışdı. Kimsə ilə şərikliyi yox idi. Şirkəti özü yaradıb, özü də idarə edirdi. Heç bir problem də yox idi. Bu iş dəhşətdir ki, başımıza gəlib".

**"Onun Azərbaycanda kimlərləsə problemləri vardımı" sualına M.Süleymanovun cavabı belədir:** "Bu, "sifarişli ölümdür" deyə bilmirəm. Ona 5 bıçaq vurulub. Hazırda istintaq bu məsələni araşdırır ki, ona həmin xəsarətləri maşında yanında əyləşən şəxs yetirib, yoxsa hadisə maşından kənarda olub. Mən özlüyümdə belə düşünürəm ki, bıçaqlanma maşından kənarda olub. Sonra Rəşad maşına minib ki, özünü xəstəxanaya çatdırsın, çatdıra bilməyib. Hadisə Argentinskaya deyilən bir küçə var, ona yaxın yerdə olub. Belə düşünürəm ki, nə olubsa küçə mübahisəsi zəminində olub. Bildiyim budur. Oraların küçələri Bakıdakı kimi deyil. Hər addımbaşı hər küçədə kameralar yoxdur. Avropa şəhərlərində kameralar ancaq yolayrıclarında, dördyollarda, bəzi yerlərdədir. Bu da işin üstünün tezliklə açılmasını əngəlləyir. Çexiya polisi bu iş üzərində işləyir. Yüksək səviyyədə tapşırıq var. Gözləyirik ki, orada nə baş verdiyi aydınlaşsın, görək bu nə məseldir".

Qeyd edək ki, biznesmen Rəşad Qafarov öldürülməzdən bir neçə saat əvvəl həyat yoldaşına deyib ki, işlə bağlı görüşə gedir. Rəşad Qafarov hadisədən bir neçə saat əvvəl onu görüşə çağıran şəxslə danışıb, bu zaman onun danışığında hər hansı həyəcan, narahatlıq müşahidə olunmayıb. Çexiya polisi biznesmenlə danışan həmin şəxsin kimliyini dəqiqləşdirib-dəqiqləşdirməməsi də bilinmir. Ailəni narazı salan da belə məqamlardır.

R.Qafarov iyunun 29-da öldürülüb, meyiti maşınında ertəsi gün tapılıb. Rəşad Qafarov Çexiyada və Azərbaycanda öz sahəsində kifayət qədər tanınmış biznesmen olub. O, hazırda fəaliyyətini dayandırmış Azərbaycan Beynəlxalq Universitetinin məzunudur, bundan əvvəl "Panalpina" beynəlxalq loqistika şirkətinin regional nümayəndəliyində işləyib. Sonuncu vəzifəsi "TERN Transport & Trading CZ" şirkətinin baş direktoru vəzifəsi idi. Çexiyanın şirkətlər reyestrində yer alan məlumata görə bu şirkətin səhmdarları Rəşad Qafarov və Dilara Qafarovadır. "TERN Transport & Trading" şirkətinin saytında göstərilənlərə əsasən bu şirkət 2008-ci ildə yaradılıb, hava, dəniz, dəmiryolları və avtomobil daşımaları ilə loqistik xidmətlərin tam kompleksini təklif edir. Şirkətin ilkin yükdaşıma marşrutu Azərbaycandan olsa da o, tezliklə fəaliyyətini genişləndirib, Çexiya, Böyük Britaniya, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya və Türkiyədə filiallar şəbəkələri, anbarlar yaradıb. Şirkət hazırda Avropanın avtomobil nəqliyyatı ilə yükdaşımalar sahəsində liderlərindən biridir. Saytda göstərilir ki, şirkət dünyanın istənilən nöqtəsindən istənilən başqa nöqtəsinə yükləri çatdırmağa hazırdır. Yükdaşımalardan əlavə şirkət yüklərin qısa və uzunmüddətli saxlanılmasını, yüklərin idarə edilməsini, gömrük xidmətlərini, sığorta və digər məsələləri də həll edir. R.Qafarovun cənazəsi Çexiyadan Azərbaycana gətirilərək Bilgəh qəbiristanlığında torpağa tapşırılıb.

❑ E.MƏMMƏDƏLİYEV

# Tofiq Yaqublu ABŞ-a birdəfəlik getməsi xəbərinə reaksiya verdi

**İyunun əvvəlindən ABŞ-a gedən Müsavat Partiyası başqanının müavini, yazar Tofiq Yaqublu hələ də paytaxt Vaşinqtondadır. Tofiq Yaqublu okeanın o tayın işgüzar səfər getdiyini açıqlamışdı. ABŞ səfərindən iki aya yaxın vaxt keçsə də Tofiq Yaqublu hələ vətənə dönməyib.**



Tofiq Yaqublu

Dünən Tofiq Yaqublu ilə əlaqə saxlayıb "Amerikadan geri dönməyi düşünürsünüzmü? Sizi mühacir hesab etmək olarmı artıq?" suallarını ünvanladıq. Cavabında bildirdi ki, səfəri müvəqqətidir və mühacirətə getməyib: "Nə mühacir? Elə şey yoxdur. Bir azdan qayıdıram".

Tofiq Yaqublu ABŞ-da soydaşlarımızla görüşdüyünü, vəziyyətinin normal olduğunu bildirdi. Azərbaycana qayıdacağı gün barədə isə dəqiq nə isə demədi.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 179 (6793) 29 avqust 2017



# Şefferi Azərbaycan əsgəri sonuncu vasitəçi edəcək!

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**ABŞ Minsk Qrupuna Allah bilir, sayca neçənci həmsədrini təyin elədi. İndi də Endrü Şefferin adını bir müddət əzbərləyib yadda saxlamalı olacağıq.**

Futbol dilində yazsaq, Şefferin neçə nömrə geyinəcəyi hələlik bilinmir. Bir şey bilinir ki, Vaşinqton Qarabağ konflikti ilə nə edəcəyini bilmir. Demək, Şeffer də sonuncu olmaya bilər.

Onun sonuncu həmsədr olmasının iki yolu var: ya Azərbaycan Ordusu işğalçıya qəti sözünü deyib onu öz yuvasına kimi qovmalıdır və vasitəçilərə daha ehtiyac qalmamalıdır, ya da ABŞ vasitəçilərini deyil, konfliktə yanaşma tərzini dəyişməlidir.

Hər halda, indiyədək işləmiş amerikalı diplomatların hamısı peşəkar diplomatlar olub, Şefferdən heç də geri qalmayıb. Amma çifayda? "Yük" bu günədək öz köhnə yerindədir.

Hərçənd bundan qabaqkı səfir-həmsədr Riçard Hoqland öz xələfi, 25 ilin diplomatı Şefferi yaman tərifləyib. Onu "parlaq, bacarıqlı və təcrübəli" diplomat adlandırıb.

Yeri gəlmişkən, Endrü Şefferin bioqrafiyasında bir neçə detal diqqət çəkir: "Münaqişələrin həllində praktik təcrübəyə malikdir. Bütün peşəkar fəaliyyəti boyu insan haqlarını, əlalxüsus qadın haqlarını müdafiə edib, milli və başqa azlıqlarla bağlı məsələlərə xüsusi önəm verib".

"Milli azlıqlara önəm..." - görəsən, bu, cənab Şefferin erməni separatçılarının iddialarına qarşı daha həssas olacağının xəbərçisi deyil ki?

Hoqland onu da deyib ki, təzə amerikalı həmsədr Qarabağ konflikti haqda dolğun informasiyaya malikdir. "Biz dəfələrlə görüşüb müzakirələr aparmışıq. Mənim 8 ayda qazandığım informasiyaların hamısı onda var. Odur ki, bazar ertəsindən işə başlaya bilər" - sabiq həmsədr xələfinə inamlı şəkildə bildirib.

Bundan az öncə isə o, münaqişənin həllinə dair sələfi Ceyms Uorlikin vaxtilə səsləndirdiyi həll prinsiplərini bəyan edib. Onların sayı 6-dır və ictimaiyyətə bəllidir. Hoqland xüsusi qeyd edib ki, həmin 6 prinsipdən heç biri digərindən üstün tutulmamalıdır.

Amma çətin ki, bu da çıxış yolu ola. Çünki Qarabağ konfliktinin həlli üçün 6 yox, cəmi 1 prinsip lazımdır - erməni işğalı ilə bağlı prinsip: Azərbaycanın beynəlxalq hüquqla təsbit edilmiş və tanınmış ərazi bütövlüyü və suverenliyinin təmin olunması məsələsi. Nə qədər bu açar prinsipdən kənara çıxılacaq, bir o qədər ixtilafın həlli əlçatmaz olacaq.

Necə olur ki, ərazisinin bir hissəsi işğal edilmiş Gürcüstana, Ukraynaya, Moldovaya münasibətə ABŞ, Qərb məhz bu cür yanaşma sərgiləyir Azərbaycana gələndə isə əsas prinsipin böyrünə daha 5-ni qoşur, "qarşılıqlı razılıq əsasında və tərəflər üçün məcburi xarakter daşıyacaq referendum"dan danışırlar.

İkili standart beləcə göz deşir. Bəs Azərbaycan referendum prinsipini rədd eləsə, onda necə? Bizə qarşı sanksiyalarmı tətbiq ediləcək - işğalçı Ermənistan dura-dura?!

Hərçənd rəsmi Bakı referendumla bağlı "qarşılıqlı razılıq" şərtindən yararlanmaqla ondan imtina edə, yaxud onu bloklaya bilər - əgər erməni tərəfi separatçı rejimin müstəqilliyində təkid edərsə...

Lakin istənilən halda bu, Gürcüstanın, Ukraynanın, Moldovanın ərazi bütövlüyünə yanaşma qədər ədalətli deyil, sayılmaz. Azərbaycan dövlətinin əsas işi də əslində bu ədalətsizliyə aradan qaldırmaq, BMT TŞ-nin Qarabağa dair məlum qətnamələrinin ruhunun yekun həll variantında əksini tapmasına nail olmaqdır...

*****

XXI əsrdə işğalçı ilə işğalçı kimi davranılmalıdır. Necə ki, Rusiyaya münasibətdə bu prinsipiallıq bütün ciddiliyi ilə ortadadır. "Qarabağ münaqişəsi fərqli münaqişədir" demək isə işğala haqq qazandırmaq deməkdir, beynəlxalq hüquqa münasibətdə prinsipsizlik deməkdir, nəhayət, beynəlxalq hüququ çeynəmək deməkdir.

Belə getsə, təzə həmsədr Endrü Şefferi məhz Azərbaycan əsgəri sonuncu vasitəçi edəcək! Hər necə olmasa, Qarabağ məsələsi üçün Şefferin həmsədrliyinə təsadüf edəcək kritik illər artıq başlayıb...

# Test üsulunun ləğvi siyasi qərardırmı...

**Azərbaycanda 26 ildir tətbiq edilən, ali məktəblərə qəbul imtahanlarının test üsulu ilə keçirilməsinin iki il sonra ləğv ediləcəyi ilə bağlı xəbər ictimaiyyətin geniş müzakirəsinə səbəb oldu. Əksəriyyət buna qarşıdır, amma bəzi şəxslər bildirdilər ki, həqiqətən də artıq test üsulunun ləğvedilmə vaxtı çatıb.**

Çünki hazırkı dövrdə test imtahanları abituriyentlərin nitq, yazı qabiliyyətlərinin inkişafına mane olduğu iddia edilir. Bir qisim şəxslər isə bu xəbəri etirazla qarşılayıb, test üsulunun ləğv edilməsinin korrupsiyaya yol açacağını bildirdilər. Lakin bir məqam da var ki, hələlik test üsulunun yerinə hansı modelin tətbiq olunacağı bilinmir. Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bu barədə açıqlamasında bildirib ki, yeni modellər düşünülüb: "Dəyişiklikləri, qərarlaşdırdığımız modeli sentyabr ayında ictimaiyyətə təqdim etməyi düşünürük. Hazırda ekspert və mütəxəssislər bu istiqamətdə işləri davam etdirir".





**Asim Mollazadə:** "Söhbət beynəlxalq təcrübədən gedə bilər; çox istərdik ki, qərarlar korrupsiya sistemini yenidən universitetlərə qaytarmasın"
**Məlahət Mürşüdlü:** "Dəyişiklik sualların məzmununda olmalıdır. Forma isə dəyişməməlidir"

Məlum olduğu kimi, Azərbaycanda ali məktəblərə qəbul imtahanlarında ilk dəfə test üsulunun tətbiqi AXC hakimiyyəti dövründən başlayıb. Cəbhə hakimiyyətinin müxtəlif nöqsanları barəsində danışılsa da, hətta bu hakimiyyəti tənqid edən şəxslər belə test üsulunun gətirilməsini müsbət dəyərləndirirlər. Bu baxımdan, belə iddia da var ki, test üsulunun ləğv edilməsi siyasi qərardır və məhz cəbhə hakimiyyəti ilə əlaqəli olduğu üçün bu model ləğv edilir.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan Milli Məclisin Elm və Təhsil komitəsinin üzvü, deputat Asim Mollazadə bildirib ki, burada söhbət hakimiyyətdən getmir:** "Deyirlər ki, yeni sistem tətbiq olunacaq. Biz çox istərdik ki, yeni sistem sovet dönəmindəki kimi korrupsiya sisteminin bərpası olmasın. Prosesi diqqətlə izləyəcəyik. Yeni variantlarla tanış olduqdan sonra əsaslı fikirlərimizi söyləyəcəyik. Siyasi qərar məsələsinə gəlincə isə mənə elə gəlir ki, burada söhbət hakimiyyətdən getmir. Söhbət ilk növbədə beynəlxalq təcrübədən gedə bilər və biz çox istərdik ki, istənilən qərarlar korrupsiya sistemini yenidən universitetlərə qaytarmasın".

**Məsələ ilə bağlı təhsil üzrə ekspert Məlahət Mürşüdlü də qəzetimizə bildirib ki, müzakirələr vaxtından əvvəl aparılır:** "Məleykə xanımın müsahibələrini mən də oxumuşam və orada açıq şəkildə testin ləğv ediləcəyi söylənilmir. Sadəcə olaraq, deyir ki, 2 il sonra yeni bir metodla qəbul imtahanı keçiriləcək. Bu yeni metod nədir və onun necə olacağı ilə bağlı isə bir ay sonra açıqlama veriləcək. Testin ləğv edilməsi söylənilmir. Sosial şəbəkələrdə gedən müzakirələri vaxtından əvvəl gedən müzakirə adlandırıram. Mən də Dövlət İmtahan Mərkəzi yanında İctimai Şuranın üzvüyəm. Hələ ki biz toplanmamışıq. Sentyabrın əvvəllərində yəqin ki, görüşümüz olacaq və bu barədə danışacağıq. Bir məsələ də var ki, köhnə qayda ilə şagirdlərin ancaq biliyi qiymətləndirilirdi. Orta məktəblərdə də kurikuluma tam olaraq keçid iki il sonra baş verəcək. Builki məzunlar yeni proqramla orta məktəbi bitirirlər. Proqramın məzmununda isə həm bilik var, həm də abituriyentlərin 11 il ərzində qazandıqları bacarıqların qiymətləndirilməsindən söhbət gedir. Buna görə də qəbul imtahanlarında yenilik labüddür. Düşünürəm ki, bunu testi ləğv edərək həyata keçirmək qeyri-mümkündür. Çünki çevrəmizə baxarsaq, elə Türkiyənin özündə də şagirdin bilik və bacarığı testlərlə yoxlanılır. Ona görə də hesab edirəm ki, dəyişiklik sualların məzmununda olmalıdır. Forma isə dəyişməməlidir. Bunu korrupsiyaya, köhnə formaya qayıdış kimi adlandıranlar da var. Haqq verirəm ki, bu qorxu var. Ancaq hesab edirəm ki, yeni qaydada heç bir halda testin ləğvindən söhbət getməməlidir. Sadəcə olaraq, test suallarının məzmununda müəyyən dəyişiklik olmalıdır. Abituriyentlərə elə suallar verilməlidir ki, həm onların bilikləri, həm də bacarıqları qiymətləndirilsin. Ona görə də məzmun baxımından dəyişikliklərin olması vacibdir. Düşünürəm ki, forma baxımından dəyişiklik olmayacaq".

**Ekspert universitetlərə qəbul zamanı yaşanan digər problemlərə də toxunub:**

"Hazırda bizdə bütün universitetlər Bolonya sisteminə keçib. Bu prosesin özü tələbələrə çox geniş imkanlar açır. Onlar həm tam mükəmməl bilik qazana bilirlər, həm də müəllimlərini, fənlərini seçə bilirlər. Buraxılış imtahanlarını da özləri seçirlər və proses bütün onlara imkanları verir. Bu formanın dəyişdirilməsi hələ ki düşünülmür. Həmçinin şərait yaranır ki, tələbə öz imkanlarını qiymətləndirə bilsin. Bunun üçün həm də orta məktəblərdə peşəyönümlü təbliğat proqramları var. İxtisas seçimi istiqamətində gənclərlə aparılan iş təəssüf ki, yüksək səviyyədə deyil. Buna görə də bəzən görürük ki, abituriyent deyir, məsələn, hüquqşünas olacağam. Gedir qəbul olur, ancaq proqramı yerinə yetirməyə gücü çatmır. Nəticədə o, ikinci, üçüncü kursda başa düşür ki, onun bu ixtisasa heç həvəsi belə yoxdur. Valideynlər özləri də uşaqlarının imkanlarını qiymətləndirə bilmirlər. Nəticədə isə onları düzgün istiqamətləndirmirlər. Valideyn öz arzularına uyğun olaraq uşaqları yönləndirir ki, bu da çox zaman məcburi halda olur. Tələbə artıq müəyyən kursdan sonra imkanlarını qiymətləndirəndə yanlış seçim etdiyini anlayır. O zaman isə gec olur. Bax qəbulda bu məsələlərə də diqqət etmək lazımdır. İnsanlar var ki, ikinci kursdan çıxıb, öz istədiyi ixtisasın dalınca xarici ölkəyə üz tutur. Burada psixoloqların da rolu lazımdır. 16 yaşlı abituriyentlərə öz imkanlarını qiymətləndirmələri üçün yardımçı olmalıdırlar".

❑ Əli RAİS

**Son** 17 ildə Azərbaycan müxalifətinin lider problemi yaşadığı göz önündədir. Xüsusilə mərhum prezident Əbülfəz Elçibəyin ölümündən sonra bu məsələ daim aktual olub. Onun kimi birləşdirici bir siyasətçinin olmasına daim ehtiyac duyulur və bu tipli bir şəxsin Elçibəyin davamçıları sırasından çıxmaması suallar doğurur.

# Sabiq baş nazir müxalifətdəki lidersizliyi etiraf etdi-reaksiyalar

Hazırda ölkə müxalifətinin liderlərinin tam əksəriyyəti zamanında Elçibəy komandasının üzvü olublar, indinin özündə də hər birinin rəhbərlik etdiyi siyasi təşkilatlar mövcuddur ki, bu təşkilatlar demokratik düşərgənin əsasını təşkil edirlər. Artıq uzun illər müxalif camiədə təmsil olunan liderlər də belə bir problem yaşadıqlarını açıq şəkildə etiraf edirlər. "Yeni Müsavat"ın ötən saylarının birində geniş müsahibəsi gedən sabiq baş nazir, Azərbaycan Xalq Partiyasının lideri Pənah Hüseyn də bu məsələni dilə gətirmiş, demokratik düşərgənin lidersizlikdən əziyyət çəkdiyini, bu problemin həlli yollarını tapmağın vacibliyini vurğulamışdı.

Çoxları düşünür ki, müxalif liderlərin şəxsi ambisiyaları, bir-birilərinə güzəştə getməmələri, eləcə də onların bəziləri arasında olan soyuq münasibət bu problemi ortaya çıxarıb.



**Tural Abbaslı:** "Meydan hərəkatından çıxan liderlərin hamısı xalqın etibarından düşüblər"



**Əli Əliyev:** "Aramızda növbəti dönəmin lideri yaşayır"

**AĞ Partiya başqanı Tural Abbaslı hesab edir ki, indiki şəraitdə lider axtarmaq faydasızdır:** "Düşünürəm ki, müxalifətdaxili lider axtarışı indiki zamanda faydasız fəaliyyətdir. Doğrudur ki, Əbülfəz Elçibəyin vəfatından sonra müxalifəti öz ətrafında birləşdirə biləcək lider olmadı. Buna həm liderliyə iddialıların şəxsi keyfiyyətləri imkan vermədi, həm də digər müxalifət təmsilçilərinin eqo və ambisiyaları mane oldu. Ancaq mən yenə də o fikirdəyəm ki, müxalifətin bugünkü vəziyyəti onun birləşdirici lider çatışmazlığından irəli gəlmir. Əgər indiki hakimiyyətin dönəmində keçirilmiş bütün seçkiləri diqqətlə nəzərdən keçirsək görərik ki, müxalifət hamısında demək olar ki, birgə mübarizə aparıb və həmin dönəmin özünün müxalif lideri olub. Düşünürəm ki, müxalifətin uğursuzluğunun səbəbi yeniliklərə açıq olmaması, öz daxilində heç bir islahat aparmaq istəməməsidir. Analiz edəndə görürük ki, müxalifətin 88-ci illərin meydan hərəkatından çıxan liderlərinin demək olar ki, hamısı xalqın nəzdində etibardan düşüblər. Əsas məsələ onda deyil ki, bu məsələdə xalq nə dərəcədə haqlıdır. Əsas odur ki, etimad tükənib və müxalifət də bu etimadı bərpa etmək üçün heç bir addım atmaq potensialında deyil. Artıq zaman yeni dönəm üçün yeni yanaşma tərzləri və yeni siyasi simalar tələb edir. Baxın, özlərinə müxalifətin liderləri deyən siyasətçilər 92-93-cü illərdə hakimiyyətdə olan zaman Avropa, Kanada, Türkiyədə orta məktəbdə oxuyan şagirdlər indi dövlət başçılarıdır, ancaq bizdə hələ də eyni simalardır. "Bugünkü ənənəvi müxalifət öz aralarından lider seçə bilərmi" sualına isə konkret deyə bilərəm ki, xeyr. Çünki bu insanlar artıq 25 ildir ki, bir-birilərini tanıyırlar və bir-birilərinin xarakter və xüsusiyyətlərinə bələddirlər. Əgər bu günə qədər ümumi bir dil tapa bilməyiblərsə, demək ki, bundan sonra da çətin taparlar. Nəinki öz aralarında ortaq dil tapıb vahid lider seçə bilmirlər, hətta 25 il əvvəl hakimiyyətdə olduqları zaman başlatdıqları düşmənçilikləri və intriqaları böyük həvəslə davam etdirirlər. Elçibəyin vəfatından sonra bəzilərinə elə gəlirdi ki, onlar bütün etiraz elektoratını öz ətraflarında rahatlıqla toparlaya biləcəklər. Ancaq göründüyü kimi, nəinki toparlaya bilmədilər, tam əksinə, Elçibəydən qalmış elektoratı da darmadağın etdilər. Ümumiyyətlə isə lider axtarışını ənənəvi müxalifətin gündəmdə qalmaq üçün istifadə edə biləcəyi son faydasız cəhd kimi qiymətləndirirəm".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev P.Hüseynin dediklərində həqiqətlərin çox olduğunu bildirdi:** "Hörmətli Pənah bəy dediklərində haqlıdır. Həqiqətən də Azərbaycan müxalifətində bu gün pramidal struktur mövcud deyil. Başqa sözlə, müxalif düşərgənin və narazı elektoratın əsas hissəsini "qanadı altına" alan şəxsiyyət mövcud deyil. Bu acı reallıq, ilk baxışda subyekt mahiyyəti daşıyır. Pənah Hüseyn Azərbaycan siyasətində nadir şəxslərdəndir ki, onun siyasi təcrübəsi nəzəri biliklərə istinad edir. Belə təcrübəli şəxsin hadisəyə səthi qiymət verməsi ilə razılaşa bilmirəm. Əgər hörmətli Pənah Hüseyn Elçibəy dönəmini nəzərdə tutursa, o haqlıdır. Zaman keçdikcə, Elçibəyin birləşdirici və ümumiləşdirici missiyası daha qabarıq görünməyə başlayıb. Mən elə mərhum prezident Elçibəyin timsalında Pənah Hüseynin fikrinə münasibət bildirmək istərdim. Biz 89-93-cü illərdə xalq hərəkatının lideri Elçibəyin liderlik nümunəsini görmüşük. Həqiqətən də hərəkatda ümumi istəklərin bir nəfərin timsalında cəmlənməsi mühüm amildir. O zaman xalq hərəkatı böyük nəticələr əldə etmiş, hətta hakimiyyətə də gəlməyi bacarmışdı. Biz sonradan Bakıya döndükdən sonra vəfatına qədər 1997-2000-ci illər arasında da Əbülfəz Elçibəyi siyasi fəal gördük. Eyni şəxsin 2 müxtəlif dövrdə tamamilə fərqli nəticəli fəaliyyətinin şahidi olmuşuq. Deməli, şəxsiyyətin mövcudluğu həlledici deyil, vacib olsa da, mühit və dövran, rəqibin kimliyi və gücü də siyasi proseslərə həlledici təsir gücünə malik olur. Eynilə Nemət Pənahlını da misal göstərmək olar. 88-ci il meydan hərəkatının şəksiz lideri olan Pənahlı da, bu gün nəticə göstərə bilmir. Beləliklə, Pənah bəyin fikrini inkişaf etdirərək onu demək istəyirəm ki, lidersizliyimiz faktdır. Lakin liderlərimizin olduğuna əminəm. Eyni zamanda əminəm ki, şərait yaranan kimi millət içindən öz həlledici şəxsiyyətini ortaya çıxaracaq. O dövrün və məqamın tələblərinə uyğun kim məsuliyyəti üzərinə çəkəcəksə, lider də o olacaq. Ötən əsrin sonlarında insanımızın əksəri nə Elçibəyi, nə Pənahlını, nə də ki, digər liderləri, o cümlədən Pənah Hüseyni tanımırdı. Lakin həmin adlar 2-3 ilin içində tarix yaza bildilər. İnanıram ki, aramızda növbəti dönəmin lideri yaşayır. Sadəcə olaraq, ya obyektiv, ya da subyektiv səbəblərdən situasiyanın dəyişməsi yeni dönəmin liderini ortaya çıxaracaq".

❑ **Cavanşir ABBASLI**



# Əbülfəz Elçibəyin cənazəsi ilə Bakıya bir çanta pul gəlibmiş

**Mirmahmud Mirəlioğlu:** "Bakıda çanta Əbülfəz bəyin cənazəsini aparan maşına qoyuldu..."

**KXCP sədri Mirmahmud Mirəlioğlu jurnalist Əvəz Zeynallıya müsahibəsində eks-prezident Əbülfəz Elçibəyin vəfatı ilə bağlı maraqlı açıqlamalar verib. Elçibəy Türkiyədə müalicə olunan zaman 23 gün onun yanında olmuş Mirmahmud Mirəlioğlu deyib ki, mərhum liderə hələ sağkən xəstəxanada bir çanta pul göndərilibmiş. Pulun konkret kim tərəfindən göndərildiyini açıqlamayan M.Mirəlioğlunun dolayısı ilə səsləndirdiyi fikirlərdən belə qənaətə gəlinir ki, pulları Türkiyə siyasətində tanınmış milliyyətçi siyasətçilər veriblərmiş. Əbülfəz Elçibəy isə pulları götürmək istəmirmiş, uzun-uzadı get-gəldən sonra M.Mirəlioğlu Elçibəyi razı salıb: "O çantanı qəbul edənə qədər Əbülfəz bəylə bizim aramızda çox mübahisə oldu. Mən başqa otaqda idim. Çanta getdi-gəldi. Bəy israr edirdi ki, pul təşkilatın olmalıdır. Mən də dedim ki, təşkilat tanıyan var? Türkiyə Cümhuriyyətində Elçibəyi tanıyırlar. Bunu da sizə verirlər borclarınızı bağlamaq üçün, siz də qəbul etmirsiniz, amma mən borcların bağlanması üçün qəbul edirəm. Belə də oldu".**

Bir çanta pulun mərhum eks-prezidentə nə üçün verildiyi barədə isə M.Mirəlioğlu qeyd edib ki, Əbülfəz Elçibəyin həm Bakıda aldığı evə, həm də digər məsələlərə görə xeyli borcu var imiş. Türkiyədəki dostları bunu biləndə həmin borcları ödəmək üçün o pulları veriblər.

**Əbülfəz Elçibəyin vəfatından sonra bir çanta pulun taleyinin necə olduğuna gəlincə, M.Mirəlioğlu bildirib ki, pullar Əbülfəz bəyin cənazəsi ilə birlikdə Bakıya gətirilib:** "Bir şeyi ilk dəfə deyirəm-borcun qapanması üçün verilən pulu cənazəni gətirəndə mən gətirmişəm, hamı da şoka düşüb. Elçibəyin cənazəsini müşayiət edirdi millət vəkilləri, nazirlər, Türkiyə prezidentinin xüsusi bir nümayəndəsi. Təyyarə də hərbi təyyarə idi. Mən cənazə kəfənlənəndən sonra və təyyarəyə qaldırılmaq üzrə olan zaman demişəm ki, 8-ci mərtəbədə 3 çanta var, çantanın biri mənim, ikisi Bəyindir. Məəttəl qaldılar ki, bəs sən çantanı aparmamısan, dedim, mən "Susurluq" düzəltməli idim? Çantanı mən niyə aparmalı idim ki? Türkiyədə çanta sizindir. Azərbaycan torpağında çanta mənimdir. Həmin şəxslər mənim mövqeyimi hörmətlə qarşıladılar və çantaları cənazə ilə birlikdə təyyarəyə qoydular.

Azərbaycana düşəndə hava limanında bizi qarşılayanlar sırasında dəfn komissiyasının üzvü, o zamankı spiker Murtuz Ələsgərov da var idi. Bizə dedi ki, Allah rəhmət eləsin, başınız sağ olsun, Allah hamıya səbir versin və onu da dedi ki, nə lazımdır, deyin. Dedim ki, burada Bəyin çantası var. Murtuz Ələsgərov dedi ki, qoyun maşına. Çanta Bəyin cənazəsini aparan maşına qoyuldu. Sonra çanta Almurada (Əbülfəz Elçibəyin qardaşı Almurad Əliyev) təqdim olundu. Borclar bağlandı və məsələ də onunla bitdi".

**Əbülfəz Elçibəyin kürəkəni və silahdaşı Aqil Səmədbəyli Mirmahmud Mirəlioğlunun açıqladığı məsələ ilə bağlı "Yeni Müsavat"ın suallarına belə cavab verib:** "O dövrdə mən pul məsələsindən uzaq durdum. O məsələ Almurad ağa ilə Mirmahmud ağa arasında olub. Ayrıntılara ilə heç maraqlanmadım".

Almurad Əliyevdən isə məsələyə münasibət almaq mümkün olmadı.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 179 (6793) 29 avqust 2017



# "Dirçələn" Eldar Mahmudov "zon"dakı qudasına niyə yiyə durmur-üç sensasion səbəb

## Sabiq nazirin oğlunun biznesini genişləndirməsi xəbərindən sonra onun əmisi oğlu da məhkəmə zalından azadlığa buraxıldı; yaxın ətrafının işləri qaydasına düşdüyü vaxtda Cahangir Hacıyev ən ağır şəraitli "zon"da niyə əziyyət çəkir?

**Bu ilin iyununda 13 saylı cəzaçəkmə müəssisəsinə köçürülən Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin ağır şəraitdə saxlanılması barədə yazmışdıq.**

Xəbərdə deyilirdi ki, olduqca ağır şəraiti olan bu müəssisədə sağlam və normal qaydada yaşamaq yalnız imkanlı məhbuslara nəsib olsa da, Cahangir Hacıyev nədənsə, bundan da məhrum edilib. Qeyd edək ki, daş karxanaları ilə əhatələnən, yolsuzluğu, yayda su, qışda isitmə sistemi problemi olan müəssisəyə göndərilənlər faktiki olaraq cəza müddətində işgəncələrlə üz-üzə qalırlar.

**Vəkili Aqil Layıcov "Yeni Müsavat"a açıqlamasında demişdi ki, C.Hacıyevin səhhətində çox ciddi problemlər var.** "13 saylıda sağlam adam nəfəs almağa çətinlik çəkir. İsti, bir tərəfdən də daş karxanalarından göyə qalxan toz-torpaq nəfəs almanı kəskin çətinləşdirir. Cahangir Hacıyev Haşimoto sindromundan əziyyət çəkir. Havasızlıq onun üreyindəki problemin dərinləşməsinə səbəb olub. Kəskin çəki itirib".

Gununsesi.info saytının yaydığı son məlumata görə, sabiq bank rəhbərinin tibb məntəqəsində ayrıca otaqda qalması üçün müraciəti təmin olunmayıb. C.Hacıyev müəssisədə təmir-bərpa işləri üçün müəyyən vəsait ayırmağa da hazır olduğunu vəd edib. O, başqa məhkumlarla birlikdə 180 nəfərlik "barak"da qalır. Bu müəssisədə məhkumların saxlanma yataqxanaları heç bir penitensiar qaydalara cavab vermir. Hər "barak"da təxminən 180-200 nəfər saxlanılır ki, bu da qanunvericiliyə ziddir. Həmin məhkumlar arasında HİV və Hepatit xəstəliyinin daşıyıcısı olanlar da kifayət qədərdir.

Qeyd edək ki, Qızıldaşdakı 13 saylı cəzaçəkmə müəssisəsində sabiq səhiyyə naziri Əli İnsanov, Tofiq Yaqublu, Pərviz Həşimli, Anar Məmmədli, Fərəc Quliyev və Əbdül Əbilov cəza çəkib. Hazırda bu müəssisədə İlkin Rüstəmzadə və Bayram Məmmədov saxlanılır.

**Cəzaların İcrası Məcəlləsinə görə, məhkum olunmuş şəxslər evlərinə yaxın yerdə cəza çəkməlidirlər. C. Hacıyevin hazırda saxlandığı cəzaçəkmə müəssisəsi onun evinə ən uzaq müəssisədir. Vəkili iddia edir ki, bunu bilərəkdən ediblər.** "Ora onu qəsdən köçürüblər, çünki orada şəraitsizlik var, nəfəs belə almaq çətindir. Üstəlik, həmin cəzaçəkmə müəssisəsində həddən artıq yüklənmə var. Məsələn, 20 nəfərlik barakda 40 nəfər saxlanılır". Vəkil C.Hacıyev digər cəzaçəkmə müəssisəsinə köçürülməsi üçün hələ bir neçə ay əvvəl müraciət etsə də, belə görünür ki, müraciət təmin edilməyib.

C.Hacıyevlə bağlı narahat xəbərlər onun qudası-ləğv edilmiş MTN-in sabiq şefi Eldar Mahmudovun yaxın ətrafının "dirildiyi" bir vaxta təsadüf edir. Bir neçə gün öncə E.Mahmudovun oğluna aid "Caspian Crystal" şirkətinin Fransanın məşhur içki istehsal edən "Chateau de Bordeneuve" şirkəti ilə müqavilə bağlaması xəbəri yayılıb. E.Mahmudov işdən çıxarılanda şirkətin də fəaliyyətini dayandırdığı haqda məlumatlar gəlirdi. Lakin daha sonra məlum oldu ki, şirkət işləyir və onun tərkibinə daxil olan müəssisələr fəaliyyətini davam etdirir.

Avqustun 28-də isə Nəsimi Rayon Məhkəməsində vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə təqsirləndirilən "Azərtürkbank" ASC-nin Bakı filialının sabiq müdiri, E.Mahmudovun əmisi oğlu İlham Mahmudovun cinayət işi üzrə məhkəmə başa çatıb. Hakim Elman İsayevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, İ.Mahmudov 1 il müddətinə azadlıqdan məhrum edilib. Həmçinin 1000 manat cərimə olunub. Məhkəmə İ.Mahmudova təyin edilmiş cəzanı həbsdə yatdığı günlə hesablayıb və bu səbəbdən o, məhkəmə zalından azadlığa buraxılıb.

Bu iki fakt E.Mahmudovun ətrafının yenidən toparlanmasının mesajı kimi qəbul edildiyi halda, sabiq bankirə niyə əziyyət verilməsi maraq doğurur. Məlumdur ki, sabiq nazirlə qohum olduqdan sonra C.Hacıyevin hakimiyyətdə gücü daha da artmışdı. O, həm də qudasına güvənərək bir sıra maxinasiyalara yol verib. Üstəlik, C.Hacıyevlə sabiq nazirin şərikli biznesi də olub. İndi E.Mahmudovun yaxın ətrafının işləri qaydasına düşdüyü vaxtda C.Hacıyevin ən ağır şəraitli "zon"da əziyyət çəkməsinin səbəbi nə ola bilər? Burada üç mümkün ehtimal var.

Əvvəla, ola bilər ki, C.Hacıyevlə sabiq nazirin qudalıqlarına son verilib. Yada salaq ki, Azərbaycanda yüksək post tutan qohumlar arasında bu cür problemlər olub. İkincisi, mümkündür ki, E.Mahmudov hələ yenicə toparlandığı üçün qudasına yardım əlinin uzada bilmir. Nəhayət, istisna deyil ki, C.Hacıyev heç də mediada iddia edildiyi kimi, "pis şəraitdə" yaşamır. Nə qədər hakimiyyətlə problemi olsa da, "zon"da problemi pulla həll etmək mümkünsüz də deyil.

❑ **"YM"**



Eldar Mahmudov

# Sabiq filial müdiri azadlığa necə çıxdı?

## Dövlət ittihamçısı İlham Mahmudova daha ağır cəza verilməsini tələb edir

**2 ildən çoxdur həbs edilib-edilməyəcəyi müzakirə edilən Eldar Mahmudovun yaxın qohumu azadlığa buraxılıb. Sabiq nazirin 2015-ci ildə postunu itirdikdən bir ay sonra həbs edilən əmisi oğlu azadlığa çıxıb.**

Musavat.com xəbər verir ki, "Azərtürkbank" ASC-nin "Bakı" filialının sabiq müdiri İlham Mahmudovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.

Vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə təqsirli bilinən İlham Mahmudov 2015-ci ildə həbs edilib. O, həmin ilin mart ayının 3-dən etibarən tutduğu vəzifədə işləyərkən saxtakarlıq etməkdə təqsirli bilinir. Belə ki, İlham Mahmudov vəzifəsindən sui-istifadə edərək qardaşının həyat yoldaşı Nurana Mahmudovanın adına depozit hesabları açıb.

Həmin hesablara 5 əmanət müqaviləsi üzrə ümumilikdə 103 min manat köçürüb. Həmçinin qardaşı İlqar Mahmudovun adına 10 min dollar, onun həyat yoldaşı Fatma Mahmudovanın adına illik 2 faiz ödənməklə, 45 min avro depozit hesablarına qoyulub. 2015-ci il iyulun 16-da həyat yoldaşı Kəmalə Mahmudovaya cari hesab açaraq 1100 manatın mədaxil olunmasını təşkil edən İlham Mahmudov etibarnamələr əsasında həmin hesablar üzrə əməliyyatları idarə etməkdə də təqsirləndirilir.

İlham Mahmudov bundan başqa, 2015-ci ilin 4 noyabrında qardaşı Vüqar Mahmudovun sürücüsü Nicat Məmmədovun istifadə etdiyi "Kapitalbank" ASC-yə aid plastik bank kartını dəyişmək adı ilə aldadıb və işlədiyi filiala dəvət edib.

İttihama görə, o, N.Məmmədovun etibarından istifadə etməklə ona hər hansı məlumat vermədən adına bank hesabı açıb. Hesabı açandan sonra o, Nicat Məmmədovun xəbəri olmadan qardaşı Vüqarın həyat yoldaşı Nuranə Mahmudovanın adına köçürülmüş 1 milyon 530 min dolları qanunsuz olaraq çıxarıb.

Sabiq nazirin qohumu 2015-ci ilin noyabrında məsuliyyətə cəlb edilib. Onun barəsində həbs-qətimkan tədbiri seçilib. Mahmudov Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə, yeni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilib.

Onun işinə Nəsimi Rayon Məhkəməsində baxılıb. Məhkəmənin hökmü ilə İlham Mahmudov 1 il müddətinə azadlıqdan məhrum edilərək 1000 manat da cərimə olunub. İlham Mahmudov təyin edilmiş cəzanı həbsdə yatdığı üçün məhkəmə zalından azadlığa buraxılıb.

Bu hökmdən prokuror narazı qalıb və apelyasiya protesti verib. Dövlət ittihamçısı İlham Mahmudovun barəsində təyin edilmiş hökmün ləğv edilməsini, onun daha ağır cəza ilə cəzalandırılmasını və həbs edilməsini tələb edib.

Öz növbəsində İlham Mahmudovun müdafiəçisi də apelyasiya şikayəti verib. Müdafiəçi barəsində olan hökmün ləğv edilməsini və bəraət hökmünün çıxarılmasını istəyib.

Tərəflərin şikayətləri araşdırılması üçün Bakı Apelyasiya Məhkəməsinə göndərilib. İşə yaxın günlərdə hakim Sahibxan Mirzəyevin icraatında baxılacaq.

Qeyd edək ki, "MTN işi"ndə aralarında generalların da olduğu xeyli sayda yüksək rütbəli zabitlər həbs edilib. Sabiq MTN zabitləri Bakı Hərbi Məhkəməsində mühakimə olunurlar. Vəzifə səlahiyyətlərindən sui-istifadə, mənimsəmə, sahibkarlara hədə-qorxu gəlmək kimi bir çox cinayətlərdə suçlanan zabitlərin iki ilə yaxındır davam edən məhkəmə proseslərində həmişə sual edilən bir məsələ var. "Eldar Mahmudov niyə cinayət məsuliyyətinə cəlb edilmir"- sualını "MTN işi"ndə zərərçəkmiş hər bir kəs məhkəməyə sədrlik edən hakimlərə ünvanlayır. Çünki bəzi MTN zabitləri belə etiraf edirlər ki, gizli telefon danışıqlarının dinlənilməsi, bəzi sahibkarların izlənilməsi, dövlət büdcəsindən agentlərə verilmək adı ilə silinən pullarla bağlı bütün göstərişləri birbaşa olaraq sabiq nazirdən alıblar.

Bu ilin iyul ayında MTN İstintaq İdarəsinin həbsdə olan sabiq şöbə rəisi polkovnik Vüsal Ələkbərova hökm oxunarkən məhkəmənin qərarında Eldar Mahmudovun əməllərinə də qiymət verilmişdi.

Hökmə əsasən, Vüsal Ələkbərov 12 il müddətinə azadlıqdan məhrum edilərkən məhkəmə işdə adı keçən MTN generalı Mövlam Şıxəliyev və sabiq nazir Eldar Mahmudov barəsində də cinayət işi açılması haqda qərar qəbul edib. Lakin sabiq nazirə cinayət işi açılması ilə bağlı rəsmi məlumat verilmir.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 179 (6793) 29 avqust 2017



# Tərtərdə ermənidən aldığımız kənddə düşmən üçün göz dağı

## Murov görünən ərazidə prezidentin təşəbbüsü ilə salınan iri şəhərcikdə artıq həyat qaynamağa başlayır













**Bugünlərdə bir səfər çərçivəsində yolumuz Tərtər rayonundan düşdü. Burada olarkən vaxtilə - 1993-94-cü illərdə gedən döyüşlərdə erməni işğalından azad edilən indiki Şıxarx, keçmiş Marquşevan kəndində böyük bir yaşayış məntəqəsinin salındığının şahidi olduq və bu, diqqətimizi cəlb etməyə bilməzdi. Çünki Şıxarx o kənddir ki, azad edildikdən sonra erməni işğalçılarının, necə deyərlər, 5 addımlığıdır, vaxtaşırı düşmən artilleriyadan bu kəndi atəşə tutur. Amma bu müddət ərzində tərtərlilər və həmin ərazilərdə məskunlaşmış məcburi köçkünlər heç zaman buranı tərk etməyiblər. İndi həmin kənddə böyük bir şəhərcik salınır və bu, fərəh doğuran haldır. İnşa olunan şəhərcikdən baxdıqda Murov aydınca görünür. Həmin ərazidən Murova - Kəlbəcər istiqamətinə baxdıqca, insanın içərisində qəribə hisslər baş qaldırır, qanı coşur. Beyində qeyri-ixtiyari belə bir düşüncə möhkəmlənir ki, biz Murovun bir addımlığındayıq və işğaldakı torpaqlarımızı azad edəcəyik. Eyni zamanda vaxtilə ermənidən geri aldığımız bu torpaqda salınan şəhərcik düşmən üçün sözün əsl mənasında göz dağıdır...**

Şıxarx kəndində hazırda inşa olunan şəhərciyə Tərtər rayonu ərazisində məskunlaşmış Ağdam, Laçın, Kəlbəcər və digər rayonlardan olan məcburi köçkünlər köçürüləcək. Hansı ki, onlar illərdir müxtəlif ərazilərdə qəzalı binalarda, uşaq bağçalarında, məktəblərdə yerləşdiriliblər...

**Tikintiyə nəzarət edən Məcburi Köçkünlərin Sosial İnkişafı Fondunun baş texniki nəzarətçisi İmran Süleymanov bildirdi ki, ərazidə 34 ədəd 4 mərtəbəli bina inşa edilir:** “Bunlardan 30-u 36 mənzilli, digərləri 24 mənzillidir. Ümumilikdə 36 binada 1176 mənzil var. Onlardan 120-si 1 otaqlı, 504-ü 2, 472-si 3, 80-i isə 4 otaqlıdır. Şəhərciyin ümumi ərazisi 27 hektardır. Burada 1200 yerlik 3 mərtəbəli müasir tipli məktəb, 280 yerlik 2 mərtəbəli bağça, 2 mərtəbəli inzibati bina, 2 mərtəbəli musiqi məktəbi, 1 mərtəbəli tibb məntəqəsi, 1 mərtəbəli klub-icra mərkəzi, ATS binası, 2 ədəd 2 milyon kilokalori/saatlıq qazanxana inşa edilib. Mərkəzləşmiş istilik sistemi qurulub. İçməli su təchizatı məqsədi ilə 4 ədəd 500 kub-metrlik anbar qurulub. Qaz, su, kanalizasiya, işıq sistemləri də hazırdır. Bundan başqa ayrıca olaraq ərazidəki 9 hektarlıq yaşıllıqları suvarmaq üçün də ayrıca suvarma anbarı inşa olunub. Şəhərciyin elektrik təchizatı üçün 40 meqabaytlıq transformator qurğu-kompleksi qurulub. Bu, bütövlükdə Tərtər rayonunun elektrik təchizatını ödəməyə tam yetir və hazırda rayonun da istifadəsinə verilib. Əlavə olaraq 35/10 kilovatlıq 1 ədəd, 10/0.4 kilovatlıq isə 1 ədəd yarımstansiya qurulub. Yaşayış kompleksində kommunikasiya sisteminin uzunluğu 125 kilometrdir. Ərazinin 100 min kvadratmetr hissəsinə asfalt örtüyü vurulacaq və artıq bunun müəyyən hissəsi yerinə yetirilib. Həmçinin, istirahət meydanşaları, 40 söhbətgah (”besedka") da kompleksdə qurulmaqdadır. Habelə, 4 ədəd sutəmizləyici qurğular da inşa edilib ki, onlar sutka ərzində 1200 kub suyu təmizləmək gücündədir. Belə bir müasir yaşayış kompleksi cəbhə xəttində inşa edilib. Müxtəlif tikinti layihələrində çalışmışam, əminliklə deyə bilərəm ki, heç Bakıda belə müasir və keyfiyyətli kompleks yoxdur. Bəllidir ki, şəhərcik cənab Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə salınır. Bu, prezidentimizin cəbhə xəttindəki insanlara, məcburi köçkünlərə qayğısıdır. İşlərin icrasını cənab prezident Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə həvalə edib. Burada onlarla şirkət podratçı kimi çalışıb, ümumilikdə işlərin görülməsinə 1800 nəfərə yaxın usta-fəhlə cəlb edilib. Evlərə çılçırağa, qaz plitəsinə, hamam vannasına qədər quraşdırılaraq məcburi köçkünlərə təhvil veriləcək. Artıq son tamamlama və təmizlik, abadlıq işləri gedir, burada həyat qaynamağa başlayır. Bir neçə ay sonra burada 5-6 min nəfər insan yaşayacaq".

**İş icraçısı bildirdi ki, şəhərciyin tikintisinin bu ilin sonuncu kvartalında tam yekunlaşdırılması və təhvil verilməsi nəzərdə tutulub:** “Artıq son tamamlama işləri görülür, biz cənab prezidentin təşəbbüsü ilə icra olunan bu layihəni yəqin ki, noyabr ayınadək təhvil verəcəyik və insanlar evlərinə köçəcəklər”.

**Qeyd edək ki, prezidentin təşəbbüsü ilə bu yaxınlarda analoji layihə Cocuq Mərcanlı kəndində də icra olunub; düşmənlə üz-üzə olan bu kənddə də yeni şəhərcik salınaraq, istifadəyə verilib.**

❑ Elşad MƏMMƏDLİ

# Bank sektorunda böhran davam edir

## İlin sonuna kimi hansı banklar bağlana bilər?




**Azərbaycanın böhran dövrünü yaşayan bank sektorunda vəziyyət bir qədər sabitləşsə də, statistik göstəricilər durumun elə də düzəlmədiyini göstərir. Belə ki, 2017-ci il iyulun 1-nə bank sektorunun xalis mənfəəti 84,9 milyon manat təşkil edib. Maliyyə Bazarlarına Nəzarət Palatasının açıqladığı hesabata əsasən, may ayı ilə müqayisədə iyunda bank sektorunun mənfəəti 93,3 milyon manat və ya 52,4% azalıb. Bu ilin altı ayında bankların faiz gəlirləri 1 milyard 7,3 milyon manat, faiz xərcləri isə 482,7 milyon manat olub. Qeyd edək ki, hesabat dövrü ərzində banklar tərəfindən aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına 408,9 milyon manat vəsait ayrılıb.**

Bəs görəsən, payıza doğru bank sektorunu nə gözləyir? Bu kommersiya qurumlarının fəaliyyətində hansı müsbət dəyişikliklər ola bilər? Və ya əksinə, növbəti bankların bağlanmasının şahidi ola bilərikmi?

**“Yeni Müsavat”ın bu sualını cavablandıran iqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov ümumən bank sistemində müəyyən sabitəşmə müşahidə olunduğunu bildirdi:** “Əlbəttə, böhran qalır, bəzi banklarda hətta dərinləşir də, amma bütövlükdə sistem üzrə kəskin dərinləşmə yoxdur. Bununla belə, əvvəlki problemlər də həllini tapmayıb. Onların ən əsası problemli kreditlərdir. Son zamanlar bankların bir qismi borclulara güzəştlər təklif edərək kreditlərin müəyyən hissəsinin qaytarılmasının başlanmasına nail ola bilir. O cümlədən bəzi borclar üzrə banklar artıq məhkəmə proseslerini udub və xüsusən də girovların satılması hesabına borcların bir qisminin ödənilməsinə nail ola bilib. Amma bütün bunlara baxmayaraq, dediyim kimi, yalnız böhranın əvvəlki kimi kəskin dərinləşməsinin qarşısı alınıb. Ümumən isə problemli kreditlərin həcmi yenə də artıb və artır. Bunun da səbəbləri bəllidir. Əvvəla, xeyli borclu var ki, onlar faktiki müflisdir və borcunu ödəyə bilmir. Ən əsası isə bank sahibləri və inzibatçılarının verdiyi külli miqdarda qanunsuz kreditlərin qaytarılması istiqamətində ciddi iş görülmür. Təəssüf ki, Maliyyə Bazarlarına Nəzarət Palatası daxilindəki hərc-mərclik də banklar üzərində nəzarətin səmərəliliyinə mənfi təsir göstərir”.

**Ekspert onu da vurğuladı ki, Mərkəzi Bank da bankları lazımi qədər kredit vəsaiti ilə təmin etmir:** “Burada dövlət qurumları arasındakı ziddiyyətlər də ciddi mənfi rol oynayır. Bütün bu fonda banklar əmanətləri də itirməyə davam edir. Nisbətən daha az olsa da, yenə də bu proses var və bankların likvitliyinə mənfi təsir edir. Bəzi banklar hətta əmanətləri qaytarmır. Bütün bunlar onun göstəricisidir ki, bəzi bankların bağlanma ehtimalı böyükdür. Amma panikanın yaranmaması üçün yəqin ki, onları, sadəcə, daha güclü banklara birləşdiriləcəklər. Yaxın zamanın ən ciddi problemi əslində heç bank sisteminin özü deyil, maliyyə sistemini idarə edən dövlət qurumları arasında koordinasiyanın yaradılması, o cümlədən Palatanın daxilində ikitirəliyin aradan qaldırılmasıdır. İstisna deyil ki, yaxında bizi dövlət idarəçiliyinin özündə, o cümlədən kadr məsələlərində dəyişikliklər gözləyir”.

**İqtisadçı ekspert Natiq Cəfərli də vurğuladı ki, bank sektoru hələ normal vəziyyətinə qayıtmayıb:** “Rəsmi rəqəmlər də sübut edir ki, bank sektorunda baş verən neqativ proseslər artan templə gedir. Çünki rəsmi rəqəmlərdə görünən odur ki, həm problemli kreditlərin həcmi artıb, həm də ölkədə kreditləşmənin səviyyəsi ötən ilə belə nisbətən təqribən 1,6 milyard manata yaxın azalıb. Bu çox ciddi azalmadır. Deməli, banklar kreditləşməni həyata keçirə bilmirlər. Nə də köhnə kreditləri toplaya bilmirlər. Bu da bank sektorunda durğunluğun əsas səbəblərindən biridir. Problemli kreditləri rəsmi rəqəmlərə görə də xeyli artıb, təqribən 13 faizə yaxınlaşır. Ancaq beynəlxalq agentliklərin hesabladığı rəqəmlər bundan ən azı iki dəfə çoxdur. ”Moody’s", “Fitch” və “S&P” beynəlxalq reytinq agentliklərinin hesabladığı rəqəmlərə görə, problemli kreditlərin həcmi 25 faizi keçib. Rəsmi rəqəmlər də sübut edir ki, bank sektorunda baş verən proseslər normal axarına düşməyib. Bu da ümumi iqtisadi proseslərə təsir edir. Çünki bankların əsas qayəsi iqtisadiyyatın çarxlarının dönməsinə xidmət etmək, kreditləşməni həyata keçirməkdir. Əgər bunu bacarmırlarsa, deməli, iqtisadiyyatda aktiv rol oyanaya bilmirlər. Ancaq Beynəlxalq Bankla bağlı baş verən prosesdən sonra bu problem həll olunana qədər daxili bank sistemində bir müddətlik kəskin addımların atılmasından qaçılır. Problemli banklar bu gün də var, lakin onlarla bağlı qərarların verilməsi gecikdirilir, zaman uzadılır. Ona görə də bir müddət sonra radikal addımların atılması qaçılmaz olacaq. Bankların sağlamlaşdırma əməliyyatı sona çatmadan, hansı bankların ayaqda qaldığını görmədən onlara yardım etmək də mümkün olmayacaq. Bank sektoru nə qədər çalışsa da, dövlət dəstəyi olmadan bunu həyata keçirmək mümkün olmayacaq".

❑ Nərgiz LİFTİYEVA



# Qumluqdakı qəbul

Zamin HACI
zaminhaci@gmail.com

*(Kobo Abe müəllimə nəzirə)*

**Quzunun çəkisinin dəyişmədən saxlanması haqda məşhur pritça var. Orda adam quzunu ilin əvvəlində və axırında çəkirdi, eyni kilo alınırdı. Soruşurdular bunu necə elədin, deyirdi: "Mən hər gün quzuya ot verirdim, hər gün də canavarı göstərirdim".**

Bugünlərdə test üsulunun ləğvi haqda növbəti diskussiya ortaya atılanda o pritçanı xatırladım. Əslində cəmiyyətimizin çəkisinin dəyişməməsi üçün dövriyyəyə buraxılan mövzular çoxdur. Bunlardan Qarabağ danışıqları, cəbhədə irəliləyişlər və itkilər, neftin qiyməti, benzinin qiyməti, manatın devalvasiyası, tanınmış bir adamın həbsi və sairəni sadalamaq olar. Belə temalar cəmiyyəti balansda, rejimdən, sistemdən müəyyən məsafədə saxlamağa xidmət edir, təcrübə göstərir ki, uğurla da xidmət etməkdədir. Çəkini onillərdir eyni ağırlıqda saxlamağı bacarırlar.

Yazdığım kimi, testin ləğvi teması da bunlardan biridir və özü də hər dəfə ciddi çəki atmağa səbəb olur, xeyli insanın qazını, köpünü alır. Axı cəmiyyət test üsulunun doğrudan da yaxşı bir hadisə olmasını anlayır. AXC hakimiyyətindən bizə miras qalan az qala yeganə müsbət hadisə budur. *(Rus ordusunun çıxarılmasını, açığı, mən o qədər ciddi uğur saymıram, çünki rus ordusu bu saat "erməni əsgəri" sifətində 15 faizdən çox ərazimizdə ağalıq etməkdədir. Deyilə bilər bu ayrı ordudur. O zaman tarixi yaxşı oxumaq lazımdır. Rus imperiyası başqa xalqları işğal edərkən adətən elə daha qabaq işğal elədiyi xalqlardan yararlanıb).*

Hamı gözəl anlayır ki, yenə gedib 3-4 müəllimin qabağında oturub imtahan versək müxtəlif fırıldaqlar ortaya çıxacaqdır. Kimisə tapşıracaqlar, kimsə pul verəcək... Bir qrupdakı 25 tələbədən 3 nəfəri pulsuz, öz gücünə qəbul olunsa şükür edəcəyik. Doğrusu, testdən kənar qəbulun da miqyası bizdə çox böyükdür. Qəbul olunanların keyfiyyəti, ümumən ali təhsilin cəmiyyətimizə verdiyi faydalar da mübahisəlidir. Ancaq bütün hallarda hər yay minlərlə azərbaycanlı ailə sevinirdi. Deyəsən indi bizim bu karikatur "ali məktəbə qəbul olunmaq"dan başqa bir ciddi sevincimiz də qalmayıbdır.

Bu baxımdan, tələbə qəbuluna baxan xanımın harasa intervüsündə bəzi cümlələrin düzgün anlaşılmaması (guya) canlanmaya səbəb oldu. Millət narahat oldu ki, test ləğv edilir. Sonra testin ləğv edilməyəcəyi, əksinə, daha təkmilləşdiriləcəyi söyləndi. Məlum olmadı testi necə təkmilləşdirəcəklər. A, B, C, D olaraq dörd cavab variantına E bəndi də əlavə ediləcəkmi? Örnək üçün belə: "Nə verərsən, verərsən". Yaxud riyaziyyatdan belə test sualı qoyulur ki, Məmməd bazarda qarpız satır, qarpızın kilosu 30 qəpikdir, gündə 100 kilo qarpız satsa həftədə neçə manatlıq qarpız satacaq. Burada cavab variantları "100 manat", "200 manat", "1000 manat", "1 milyon manat" kimi qoyulur, təkmilləşən testdə isə "Aşağı yeri də var" cavabı da variantlara əlavə edilir. Çünki heç orda düzgün cavab yoxdur. Nəticədə millətimizin balaları yeniləşən Azərbaycandakı həyat tərzinə, Lütfi Zadə irsindən pöhrələnən qeyri-səlis məntiqimizə öyrəşməlidir. Guya indiyə qədər öyrəşməyiblər...

Doğrudan da, mən bu heç nədən hay-küyü anlamıram. Yəqin anlamaq üçün Şekspir qələmi olmalıdır adamda. Çünki bu test üsulu 1992-ci ildən bəri tətbiq edilir. Üzərinə 4 il gəlsək, 1996-cı ildən bəri artıq testin buraxılışları ölkəmizə qədəm qoyur. Üst-üstə 21 il eləyir. Keçən ilin statistikasına görə bizdə tələbələrin sayı 163 min nəfər idi. Bunların aşağı-yuxarısını, hazırda oxuyanları-filanı çıxıb təxminən ildə 100 min məzun götürək və bunu 21 ilə vuraq. 2 milyona yaxın insan edir. Yəni bu dəqiqə Azərbaycan əhalisinin hardasa beşdə biri test üsulunun yetirməsidir. Lap onun da yarısını yelə verirəm gedir, qalsın 1 milyon nəfər. Bəs bu 1 milyon niyə ölkəyə 1 qram yenilik və uğur gətirməyib? Fırıldaqsız qəbul olunmaq yaxşıdırsa, nəticəsi niyə yoxdur?

Sual budur. Elə bil quma su axıtmısan.




# Ərdoğanın Bakı və Tehrana kritik səfəri - əsas hədəf

## Üç paytaxtın ortaq "qırmızı xətt"i; Türkiyə, İran və Azərbaycan bölgə təhlükələrinə qarşı daha sinxron siyasət yürütmək zorundadır...

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan yaxın vaxtlarda İrana səfər edəcək. Axar.az xəbər verib ki, bu barədə İran Xarici İşlər Nazirliyinin sözçüsü Bəhram Qasımi məlumat yayıb. "Yaxın vaxtlarda Ərdoğanın Tehran səfəri baş tuta bilər. Səfərin tarixi və təfərrüatları müəyyən edilən kimi məlumat verəcəyik", - deyə Qasımi bildirib.**

Xatırladaq ki, az öncə İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Hüseyn Baqeri Ankarada olmuşdu. Baqerini prezident Ərdoğan da qəbul eləmişdi ki, bu da müzakirə edilən mövzuların aktuallığına, eyni zamanda hərbi təhlükəsizlik çalarına dəlalət edirdi. Baqeridən bir neçə gün sonra isə Pentaqon başçısı  Ceyms Mattis Türkiyə rəhbərliyi ilə bir araya gəlmişdi.

Bu qəbildən yüksək səviyyəli görüşlər sözsüz ki, Ankaranın regionda gedən mürəkkəb proseslərin, o cümlədən regional təhlükəsizliyə təsir edən proseslərin episentrində olması və həlledici mövqeyi ilə bağlıdır. Proseslərdən biri də PKK terroru və İraq Kürdüstanının siyasi gələcəyi ilə əlaqədar cərəyan eləməkdədir.

*****

Məlumdur ki, İsrail xaric, regionun aparıcı dövlətləri, Türkiyə, İran, ərəb ölkələri, o sırada İraqın özü sentyabrın 25-də İraq Kürdüstanında keçirilməsi planlaşdırılan müstəqillik referendumunun əleyhinədir. Öz növbəsində muxtariyyət rəhbəri Məsud Bərzani son olaraq Pentaqon başçısı ilə görüşdə israrla bildirib ki, "referendum kürd xalqının haqqıdır və demokratiya prinsipləri ilə ziddiyyət təşkil etmir".

Bununla da o, səsvermənin təxirə salınmayacağını birmənalı olaraq diqqətə çatdırıb. Hərçənd kürd lider inandırmağa çalışır ki, referendum sırf tövsiyə xarakteri daşıyacaq və səsvermədə əsas suala pozitiv cavab alınacağı təqdirdə, İraqla "mülk bölgüsü" və müstəqil kürd dövlətinin yaradılması dərhal başlamayacaq. Yəni ayrılma prosesi uzunmüddətli və tədrici olacaq.

Ancaq bununla belə, Bərzaninin bu qəbildən vədləri, onun referendumdan sonra da situasiyanı öz nəzarətində saxlayacağına dair sözləri artıq mötəbər qəbul edilmir. Yəni qonşu ölkələrdə bu xüsusda narahatlıq qalır və artmaqdadır.

Təsadüfi deyil ki, Ankarada M.Baqeri ilə Ərdoğan arasında görüşün əsas motivlərindən biri məhz 25 sentyabr referendumu ilə bağlı olub. Və ilk dəfə olaraq İran və Türkiyə bu mövzuda açıq və ortaq narahatlığı, referenduma qarşı ortaq mənfi münasibəti bəyan edib. Hərçənd Bərzani ilə Türkiyə rəhbərliyinin çox isti münasibətləri mövcuddur...

*****

Böyük ehtimalla, prezident R.T. Ərdoğanın İraq Kürdüstanındakı referendum ərəfəsinə təsadüf edəcək qarşıdakı İran səfəri Suriya, terror, təhlükəsizlik, energetika məsələləri ilə yanaşı, bu mövzuda Tehran və Ankaranın daha konkret mövqe bildirməsi ilə yadda qalacaq. Suriya məsələsində iki ölkə arasında fikir ayrılıqlarını da hesaba alsaq, səfərin kifayət qədər kritik mahiyyət daşıyacağı gözlənilir.

Sentyabrın 10-da isə Türkiyə prezidenti iki günlük səfərlə Bakıda olacaq. Ehtimallara görə, Türkiyə lideri həm də Azərbaycanın bu məsələdə aydın mövqeyi ilə Tehrana yollanacaq *(təbii ki, iki səfər zaman etibarilə üst-üstə düşməyə, arada müəyyən zaman fasiləsi də ola da bilər)*.

Yeri gəlmişkən, ötən saylarımızın birində vurğuladığımız kimi, İraq Kürdüstanında referendum məsələsi ölkəmiz üçün də əhəmiyyətsiz məsələ deyil. Birinci ona görə ki, 1 nömrəli müttəfiqimiz, qardaş Türkiyə bu referenduma qarşıdır, çünki kürd dövlətinin yaranmasını öz suverenliyi və ərazi bütövlüyünə ciddi təhdid hesab edir. İkinci o səbəbə ki, Azərbaycanın strateji tərəfdaşı İsrail tam əksinə, bölgədə kürd dövlətinin açıq tərəfdarı kimi çıxış edir.

İstisna deyil ki, prezident Ərdoğanın qarşıdakı Bakı səfəri zamanı, ikitərəfli Yüksək Təhlükəsizlik Şurasının toplantısında bu mövzu da diqqət mərkəzində olsun. Ankara bu məsələdə Bakının konkret mövqeyini dəqiqləşdirə bilər və yəqin ki, dəqiqləşdirəcək də.

Bir şey dəqiqdir ki, üç qonşu ölkə - Türkiyə, İran və Azərbaycan nə qədər özəl maraqlara malik olsa da, bölgədəki köhnə və yeni təhlükələrə qarşı daha sinxron siyasət yürütmək zorundadır. Yəni ortaq "qırmızı xətlər" məsələsi...

❑ **Analitik xidmət**

# Portuqaliyanın müvəqqəti işlər vəkili Azərbaycan XİN-ə çağırılıb

**"Portuqaliya parlamentinin üzvü Rubini Berardinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə qanunsuz səfəri ilə əlaqədar Portuqaliyanın Azərbaycandakı müvəqqəti işlər vəkili XİN-ə dəvət olunub, məsələ ilə bağlı Azərbaycanın narahatlığı ifadə olunub".**

Bunu APA-ya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev portuqaliyalı parlamentarın bu ayın ortalarında Dağlıq Qarabağa qanunsuz səfər etməsi və görüşlər keçirməsini şərh edərkən deyib.

O bildirib ki, Portuqaliya nümayəndəsinin bu səfərinin fərdi xarakter daşıdığı, Portuqaliya XİN-in internet saytında Dağlıq Qarabağa səfərlərdən çəkinmək üçün ölkə vətəndaşlarına xəbərdarlığın yerləşdirildiyi qeyd olunaraq, məsələ barəsində Azərbaycanın narahatlığının öz ölkəsinə çatdırılacağı bildirilib.



Hikmət Hacıyev qeyd edib ki, Portuqaliya beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini dəstəkləyir. Xarici işlər naziri Elmar Məmmədyarovun 2016-cı ilin noyabrında Portuqaliyaya rəsmi səfəri çərçivəsində Portuqaliyanın bu rəsmi mövqeyi ölkənin xarici işlər naziri və digər rəsmiləri tərəfindən bir daha səsləndirilib: "Ermənistan tərəfinin bu kimi lüzumsuz təxribatçı əməllərin əvəzinə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin münaqişənin həlli ilə əlaqədar təkliflərinə uyğun olaraq konstruktiv addımlar atması regionda davamlı sülh və təhlükəsizliyin təmin edilməsinə faydalı olardı".

Hikmət Hacıyev onu da əlavə edib ki, haqqında bəhs olunan şəxsin adı arzuolunmaz şəxslər siyahısına daxil ediləcək.

YENİ MÜSAVAT
N 179 (6793) 29 avqust 2017

**Xarkovda yaşayan erməni əsilli ictimai xadim, tarixçi, ədəbiyyatçı və blogger Filipp Ekozyants YouTube-də "Erməni köçü" adlı maraqlı bir videorolik yerləşdirib. Daha sonra o, çıxışını sosial şəbəkələrdəki səhifələrində paylaşıb. Videorolikin aktuallığını, o sırada soyqırım iddiaları, qonşu xalqlara qarşı ərazi iddiaları və erməni xalqının qədimliyi ilə bağlı miflərin bir erməni ictimai xadimin dilindən ifşa edildiyini nəzərə alıb, çıxışın tam tərcümə mətnini oxucuların diqqətinə çatdırırıq.**



# Erməni tarixçi soyqırım iddialarını və "erməni böyüklüyü" mifini darmadağın elədi

## **Filipp Ekozyants:** "Ermənilər olmayan bir tarix icad edib öz virtual aləmlərində yaşayırlar..."

"Mən etiraf edirəm ki, ermənilərin soyqırımı indi aparılır. Tarixi hadisələri saxtalaşdırıb bəhanə qismində istifadə edərək erməni xalqını real dünyadan kəsib ayırmaq istəyirlər. Və bunu əfsus ki, kifayət qədər uğurla edirlər. Təəssüf ki, bu gün biz ermənilər öz soyqırımımızda özümüz iştirak edirik.

Ermənilərin genosidi bizim vərdiş edib inandığımız kimi və ya bizi inandırmağa çalışdıqları kimi, heç də 100 il öncə baş verməyib, həm bizim xalq üçün, həm də Osmanlı İmperiyasının bütün xalqları üçün böyük fəlakət baş verib. Bu şər illər öncə olub, bitib və həmişəlik bizim qəlbimizdə qalıb.

Erməni xalqının genosidi isə 30 il sonra - 20-ci əsrin 40-cı illərdə başlayıb. Və məhz o vaxt "genosid" sözü və anlayışı meydana çıxıb və bu günədək davam edir. Bu genosidin mahiyyəti də ondan ibarətdir ki, bizim erməni xalqını real dünyadan virtual dünyaya köçürmək istəyirlər.

Əvvəla, bizi inandıra biliblər ki, bizim öz qonşularımızla, ən yaxın xalqlarla və qan qohumlarımızla heç bir ortaq bağlarımız yoxdur. İkincisi, bizi inandıra biliblər ki, son 400 illik tariximiz, yəni bütün Osmanlı dönəmi bizim tariximiz deyil və biz guya bu 400 ildə böyük Osmanlı İmperiyasının, zəngin, qüdrətli və maarifləndirici bir dövlətin tamhüquqlu üzvləri yox, hüquqsuz qulları olmuşuq.

Bu, əlbəttə ki, belə deyil. Və mən əminəm ki, erməni qardaşlar biz bir yerdə baş çıxarıb gerçəyi bulacağıq ki, kim bizi aldadır. Bizə həqiqi tarix əvəzinə virtual qədimilik, virtual böyüklük anlayışlarını sırıyırlar - hansıların ki, reallıqla heç bir əlaqəsi yoxdur. Xalqımız üzərində belə bir psixo-tarixi zorakılıq nəticəsində biz özümüz özümüzün düşməni olmuşuq - hətta buna şübhə də eləmirik.

Biz qonşu xalqlara, xüsusən də türk xalqına qarşı özümüzün sürrealist tələblərimiz və iddialarımızla öz coğrafi əhatəmizdə bioloji izqoya *(tullantı - red.)* çevrilmişik. Və biz heç cür anlaya bilmirik ki, həm bizim "soyqırım" anlayışının yaradıcıları, həm də qonşulara qarşı mənəvi, tarixi və ərazi iddialarının təşkilatçıları - hansılar ki, çox gözəl şəkildə erməni xalqının qurbanlıq obrazını tərənnüm edirlər - əslində bizim amansız və məkrli düşmənlərimizdir.

Biz artıq on illərdir bizə tamamilə yad olan insanlar tərəfindən düşünülmüş olduqca ağır "genosid" xaçı ilə dünyada veyllənirik. Bu müddətdə genosid sözü hərfi mənada bizimlə qovuşub. O, hər bir erməni ailəsinin üzvü olub, icazəsiz və çəkinmədən bizim qəlblərimizdə yuva salıb və bizim xalqın həyati şirələrini oradan sorur. Biz qapalı, qəzəbli, kinli olmuşuq və uydurduğumuz dünya ürəyincə olmayan hər kəsi məhv eləməyə hazırıq - o dünya ki, biz orada ən qədim, ən böyük, ən əzabkeşik.

Şükür Allaha ki, ermənilər arasında öz sağlam mühakimə qabiliyyətini və zəkasını qoruyub saxlayanlar kifayət qədərdir. Mən bilirəm və əminəm ki, bizim xalq öz yaddaşını, bütün doğmalarını özünə qaytarmalıdır. Onu necə var, elə də qəbul eləməlidir. Söhbət həm Türkiyə xalqından, həm Azərbaycan xalqından, hım də rus xalqından gedir.

Mən bu xalqları bizdən hansı ardıcıllıqla aralayıblarsa və hansı ardıcıllıqla aralamada davam edirlərsə, o ardıcıllıqla da sıraladım. 19-cu əsrin sonlarında türkləri, 20-ci əsrin sonlarında qəti olaraq azərbaycanlıları bizim düşmənlərimizə çevirdilərsə, indi də ruslara qarşı xalqımıza uğurlu şəkildə nifrət virusu peyvənd edirlər. Odur ki, nə qədər ağır da olsa biz öz real, təbii ailəmizə qayıtmalıyıq. Əgər bunu eləməsək, mən əminəm: biz məhv olacağıq, həll olub gedəcəyik.

Bir çox şərhçilər məndən xahiş edirlər ki, erməni xalqı adından danışmayım. Mən onlara cavab verirəm: mən heç vaxt bütün erməni xalqı adından danışmamışam, danışmıram və danışmayacağam. Mən yalnız öz şəxsimdə, öz adımdan danışır, öz fikirlərimi söyləyirəm - o ümidlə ki, məni məhz ermənilərin anlaqlı kəsimi eşidəcək.

Mən bizim virtual qədimliyimizin, qədim böyüklüyümüzün konkret nədən ibarət olduğunu göstərmək və əsas bu suala cavab vermək üçün öz üzərimə məsuliyyət götürürəm: kim və nə üçün bizi aldadır? Digər bütün xalqlar kimi bizim də qədim keçmişimiz var. Ancaq əfsus ki, onun haqda dəqiq heç nə, yaxud demək olar, heç nə məlum deyil.

Mən dəfələrlə təkrar eləmişəm və yenə təkrar edirəm: bizim güclü dövlətimiz olub. Onun adı Osmanlı İmperiyasıdır. Və biz orada erməni etiqadlı osmanlılar olmuşuq. Bizim heç bir başqa dövlətimiz gerçəkdə mövcud olmayıb. Varisi yalnız erməni xalqı olan dövlət də yüz faiz olmayıb. Mən yalnız təsdiqlənmiş və sizə məlum olan faktlara əsaslanaraq öz keçmişimiz haqda həqiqəti daha ətraflı şəkildə təqdim edəcəyəm".

❑ **Siyasət şöbəsi**

# Ümid yarpaqları...



**Hüseynbala SƏLİMOV**

**Bəlkə də mənim üçün bir qüsur da sayıla bilər - heç cür xatırlaya bilmirəm ki, hansı bəstəkarla baş veribdir bu olay?.. Səhv etmirəmsə, Haydnın həyatında olubdur...**

Qərəz, nə başınızı ağrıdım, orkestrin musiqiçilərinin məvacibini verməyirlərmiş. Haydn elə edir ki, musiqiçilər konsertin gedişində bir-bir səhnəni tərk etməli olurlar və maaş verməli olanlar da anlayır ki, biçarə musiqi əhlinin maaşını daha geçikdirmək yaramaz.

Niyə xatırladım bu detalı? Qəfil ağlıma gəldi ki, elə biz də həmin o orkestrə bənzəyirik - bircə fərqlə ki, o musiqiçilərdən fərqli olaraq bizlər də bircə - bircə "maaşımızı" alır və orkestri tərk edirik.

Bəli, fərqimiz məhz elə bundadır- Haydnın musiqiçiləri yenidən orkestrə qayıtmaq üçün, biz isə bir daha ora dönməmək üçün "məvacib" alırıq...

Əvvəllər də bir neçə dəfə yazmışam ki, yazı yazmaq da böyük bir məşəqqətə çevrilibdir. Elə ki, xarici siyasətlə və ya dünyadakı proseslərlə maraqlı bir detal üzə çıxır, adam lap uşaq kimi sevinir, bütün jurnalist təxəyyülünü və yaxud da ki, təfəkkürünü işə salıb nəsə bir şey gətirmək istəyirsən ortaya...

Bu olmayanda isə dilxorçuluq baş alıb gedir, elə yerində qovrulursan ki, bəs görən, nə yazım və necə yazım...

Özümüzdən söhbət düşəndə həmişə O" Henrinin məşhur novellasını xatırlayıram. Bəli, qoca rəssam bir yarpaq şəkililə xəstə qızı sağalda bilir. Özlüyümdə buna "ümid yarpağı" deyir və elə özümüzü də beləcə bir yarpağa bənzədirdim. İndisə məlum olur ki, artıq bütün yarpaqlar, təbii və kağız-hamısı tökülməkdədi və daha onlar güclü küləklərin qarşısında tab gətirmir.

Artıq ən mahir "rəssamın" belə təxəyyülü acizdir bu küləyin qarşısında və bircə o qalır ki, ağacdan qopub adamlara səmimi şəkildə "Daha biz də ümid yarpaqları ola bilmirik" deyəsən.

Bəlkə bunu deməyə də heç elə bir ehtiyac yoxdur. Ona görə ki, külək özü bizi budaqlardan qoparıb atıb və yaxud da atacaqdır. Bizə bəzən elə gəlir ki, hər bir şeyi demək lazımdır, izah etmək lazımdır insanlara, amma insanlar sözsüz də çox şeyi anlamaq, başa düşmək iqtidarındadır.

Bir çox hallarda hər şeyi demək və yaxud da ki, izah etmək çərənçilikdən başqa bir şey olmur- susmaq gərəkən yerdə yalnız susmaq qalır...

Burada yenə də musiqidən kiçik bir detal yadıma düşür. Bir anlığa təsəvvür edin. Pianoçu əyləşir, pianonun qapağını qaldırır, cəmi bircə not səsləndirir və əli havada asılı qalır. Beləcə bir neçə dəqiqə keçir və nəhayət, sonuncu not səslənir və bununla da "əsər" bitir...

Təsəvvür edirsinizmi?.. Bəli, etsəniz də, etməsəniz də belə bir şey olubdur. Lap hamımızın haqqında eşitdiyi və yaxud da reproduksiyalardan gördüyü məşhur qara kvadrat - bəli, K.Maleviçin çəkdiyi qara kvadrat kimi...

Əslində taleyini özü seçənlər gileylənməməlidir. O kəslər gileylənər ki, onların alternativi olmayıbdır. O kəslər gileylənə bilər ki, onların seçim imkanı olmayıbdır.

Hansısa bir səbəbdən bu ölkəni seçənlər bu ölkəni sevməyə məhkumdurlar. Bəli, bəli, çox düz başa düşdünüz - onlar bu ölkəni sevməyə məhkumdurlar. Çarəsizlikdən burada qalanlardan bu, tələb olunmur - onlar uzağı talelərilə barışmaq məcburiyyətində qala bilər.

Gəl, yaşamaq üçün bu ölkəni seçənlər, bəli, bir daha deyirəm ki, məhz seçənlər də heç az olmadı. Elə özümüzü də haradasa onların sırasına aid edirik.

Motivlər müxtəlif ola bilərdi. Elə oldu da. Əksəriyyəti, özü də mütləq əksəriyyəti yenə də bir növ aldananlar idi. Onlar doğrudan-doğruya belə hesab edirdilər ki, bütün çətinliklər, bütün bu sosial-siyasi eybəcərliklər müvəqqətidir, anidir. Təəssüf ki, belə olmadı və onlar aldanaraq burada, bu ölkədə qalmalı-yaşamalı oldular.

Özümüzə gəldikdə isə, motivlər haradasa, "Qumsallıqda qadın" romanının fəlsəfəsinə adekvat idi. Bilirdik ki, çox çətinliklər olacaq və bəlkə də bir nəslə heç "yaxşı günləri" görmək qismət olmayacaq. Gəl, kimsə çətinliklərə çiyin verməli idi, heç olmasa, "ümid yarpağı" olmalı idi. Amma bilmirdik ki, külək o qədər güclü olacaqdır ki, hətta bizləri də budaqlardan qoparıb atacaqdır...

YENİ MÜSAVAT
N 179 (6793) 29 avqust 2017

**Ötən həftənin sonlarında Suriya iqtidarı və müxalifət arasında təması yaranması diqqət çəkdi. Ancaq digər diqqət çəkən və heyrət doğuran məsələ Suriyada az qala yarım milyon insanın məhvinə bais olan, yüz minləri evindən didərgin salan Bəşər Əsədin Qərb tərəfindən "əfv" olunmasıdır.**



# Qərb 400 min insanı qətl edən diktatoru bağışlayır - səbəb

## Politoloq: "Əsədsonrası Suriyanı təsəvvür edəndə xaos görünür, bu isə Qərbi qorxudur"

"The Times" yazır ki, nəhayət, Britaniya və onun Qərb müttəfiqləri Suriyada prezident Əsədin öz postunu tərk etməsi barədə uzunmüddətli tələblərindən əl çəkiblər. Üstəlik, Avropa İttifaqı nazirlərinin iclasında belə bir ehtimal da məqbuil sayılıb ki, dünənədək diktator adlandırılan və bəşəriyyətə qarşı cinayətlərdə günahlandırılan Suriya prezidenti qarşıdan gələn seçkilərdə iştirak edə bilər. Beləliklə, Avropanın xarici işlər nazirləri Britaniyanın da 2011-ci ildən bəri saxladığı kursdan 180 dərəcə dönmək qərarına gəliblər. (BBC) "The Times" vurğulayır ki, bu dönüş Suriyada münaqişə başlanandan bəri 400 min insan məhv olduqdan sonra qəbul edilib. Bu insanların böyük əksəriyyəti Əsəd qüvvələri və müttəfiqlər tərəfindən öldürülüb.

Məlumatda deyilir ki, ötən həftə Səudiyyə Ərəbistanının paytaxtı Riyadda Suriya müxalifətinə açıq şəkildə deyilib ki, onların Əsədin hakimiyyətdə qalmasını qəbul etməkdən başqa çıxış yolları yoxdur. Müxalifətə bu da bildirilib ki, Əsədin hakimiyyətdən getməsi şərtilə danışıqların aparılmasında da heç bir məna qalmayıb. Britaniyanın xarici işlər naziri Boris Johnson bu siyasət dəyişikliyinə BBC-nin Radio 4 stansiyasına müsahibəsində işarə edib. "Əlbəttə, bu, tamamilə Suriya xalqının marağındadır ki, Əsəd getsin, - deyib nazir. - Biz də ona deyirdik ki, ilkin şərt onun hakimiyyətdən getməsidir. Biz yenə də deyirik ki, o getməlidir, lakin artıq keçid prosesinin tərkib hissəsi kimi getməlidir. Amma eyni zamanda onun demokratik seçkidə iştirak etməsi üçün qapı həmişə açıqdır".

Diplomatlar bildirirlər ki, həm cənab Johnsonun, həm də Qərbin siyasəti dəyişməsinə səbəb Suriyanın özündə baş verən hadisələrdir. "The Times" yazır ki, yeni mövqe həm Britaniyanın müttəfiqləri, həm də müxalifətin regional dəstəkçisi olan güclər tərəfindən dəstəklənir.

**Suriya müxalifətinin sözçüsü Yəhya əl-Aridi deyib ki, o, sözdə dəstək verib, əməldə çox az dəstək verən Qərbin mövqeyindən məyus olub:** "Belə görünür ki, maraqlar mənəviyyatdan vacibdir. Cinayətlər zaman keçdikcə yox olmur".

**Başqa bir Qərb mənbəyi isə deyib:** "Bizim siyasətimiz praqmatizm və realizmə əsaslanır. Törətdikləri nəzərə alınarsa, Əsəd orada qaldıqca Suriya üçün heç bir sabit və dinc gələcək ola bilməz. Lakin onun orada qalıb-qalmaması bundan sonra danışıqlar üçün ilkin şərt sayılmır". "The Times" yazır ki, 2011-ci ildə David Cameronun vaxtından başlanan siyasətin dəyişdirilməsi hökumət üçün böyük pərtlik sayıla bilər.



Şahin Cəfərli

Bir sıra şərhçilər lap əvvəldən deyirdilər ki, Əsədin danışıqlarda iştirakının istisna edilməsi münaqişəni daha da qızışdıracaq. "The Times" yazır ki, Əsədə qarşı sərt mövqe onun vəziyyətini möhkəmləndirib və üstəlik, Rusiya və İranı da bu münaqişəyə cəlb edib.

Qərbin Suriya siyasətini dəyişməsi Rusiya faktoru ilə bağlıdır, yoxsa hansısa başqa bir oyun qurulub?

**Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a bildirdi ki, Qərbin hazırkı Suriya siyasətinin köklərini Obama dövründə axtarmaq lazımdır:** "Suriya ixtilafının ilk illərində prioritet Bəşər Əsədin hakimiyyətdən salınması idi, bu səbəblə ABŞ və onun bölgədəki müttəfiqləri mötədil adlandırılan müxalif qüvvələrə fəal dəstək verirdilər. Əslində bu siyasət öz nəticəsini vermək üzrə idi və Əsədin məğlubiyyətinə az qalmışdı. Lakin Rusiya və İranın münaqişəyə fəal müdaxiləsi, Suriyaya böyük qüvvə göndərmələri, Rusiyanın öz aviasiyası və raket qoşunları, İranın isə canlı qüvvə ilə Əsədin köməyinə gəlmələri tədricən durumun dəyişməsinə səbəb oldu. Şübhəsiz ki, vəziyyətin dəyişməsində Obama administrasiyasının mövqeyi ciddi rol oynadı, çünki ABŞ istəsəydi və qətiyyətli mövqe sərgiləsəydi, Rusiya və İran yəqin ki, Suriyaya daxil ola bilməzdi. Lakin Obama bu qətiyyəti göstərmədi, nəticədə təşəbbüs yavaş-yavaş Rusiya-İran-Əsəd üçbucağının əlinə keçməyə başladı". **Ekspert keçmiş administrasiyanın yumşaq mövqeyini səbəbsiz saymadı:** "Obamanın bu cür mövqe tutmasının əsas səbəbi bu idi ki, o, Yaxın Şərq regionuna 1 saylı prioritet kimi baxmırdı, Obama ABŞ xarici siyasətinin əsas istiqaməti kimi Asiya-Sakit okean regionunu elan etmişdi. Bilirsiniz ki, iqtidara gəldikdən sonra Obamanın ilk addımı İraqdan ordunun çıxarılması oldu. Bunun nəticəsində İraqda çox ciddi boşluq yarandı və bu boşluğu bir yandan İran, digər yandan isə İŞİD tutdu. Suriyada da buna bənzər situasiya yarandı, Obama Suriyaya quru qoşunları göndərmədi və bəyan etdi ki, bundan sonra Amerika əsgəri Yaxın Şərqdə ölməyəcək. Nəticədə yaranan boşluğu Rusiya, İran və İŞİD doldurmağa başladı. Elə vəziyyət yarandı ki, İŞİD təhdidi və Avropaya miqrant axını Qərb üçün Suriyada əsas problemə çevrildi, nəticədə Əsədin məsələsi arxa plana keçdi. Hazırda miqrant məsələsinin və İŞİD probleminin kəskinliyi bir qədər azalsa da, Qərbin Obama dövründəki yanaşmasının davam etdiyini görürük".

**Ş.Cəfərlinin fikrincə, Donald Tramp hələ prezident kreslosuna əyləşməzdən əvvəl məlum idi ki, onun üçün terrorizmlə mübarizə ən vacib vəzifə olacaq:** "Düzdür, həm ABŞ, həm də onun avropalı müttəfiqləri hələ də Suriyanın gələcəyində Əsədə yer olmadığını bildirirlər, amma mövqelərində ciddi yumşalmanın olduğu ortadadır. Artıq onlar Əsədin nəyin bahasına olursa-olsun hakimiyyətdən getməsi tələbini irəli sürmürlər və keçid dönəmində onun iştirakını mümkün sayırlar. Yəni Əsəd digər pis variantlarla - miqrantlar, terrorizm - müqayisədə daha az pis olan variantdır. Qərb mərkəzlərini ehtiyatlandıran əsas amillərdən biri də Əsədin layiqli alternativinin olmamasıdır. Yəni tutaq ki, Qərb Əsədin devrilməsində israrlı oldu və Əsəd getdi. Yerinə kim, hansı qüvvə gələcək? Bu qüvvə nə dərəcədə ölkəyə hakim olacaq? İraqdakı kimi bir boşluq, mərkəzdənqaçma meylləri yaranacaqmı? Bir sözlə, Əsəd sonrası Suriyanı təsəvvür edəndə xaos görünür, bu isə Qərbi qorxudur. Ona görə də onlar Əsədin bu mərhələdə öz yerində qalmasına etiraz etməməyi qərara alıblar. Digər tərəfdən, ABŞ üçün prioritet istiqamət Obama dövründə olduğu kimi, yenə Asiya-Sakit okean zonasıdır".

**Politoloq qeyd etdi ki, üstəlik, Obama dövründən fərqli olaraq, bu bölgədə Şimali Koreya problemi bütün ciddiliyi ilə ortaya çıxıb:** "Bu məsələ ABŞ üçün həlli vacib 1 saylı xarici siyasət problemi halına gəlib. Həmin bölgədə ABŞ-ın uzunmüddətli maraqları baxımından başlıca problem isə Çin məsələsidir. Çin gələcəkdə ABŞ-ın hegemonluğuna meydan oxuya biləcək yeganə dövlət olduğu üçün Vaşinqton bu ölkənin indikindən daha artıq güclənməsinin qarşısını almaq niyyətindədir. Təsadüfi deyil ki, hazırda Trampın tapşırığı ilə onun aparatı Çinə qarşı mümkün iqtisadi sanksiyaların tətbiqi üzərində işləyir. İran məsələsi də ABŞ üçün yenidən aktuallaşmaqdadır. Başqa bir problem isə Rusiya məsələsidir. Trampın Rusiya ilə münasibətləri düzəltmək niyyəti Konqresin və dövlət aparatının sərt müqaviməti ilə üzləşdi, nəticədə Tramp əlacsız qalaraq qanunvericilər tərəfindən müəyyənləşdirən Rusiya siyasətini həyata keçirməyə başladı. Yəni sözümüzün canı odur ki, hazırda ABŞ üçün Suriyadan daha vacib problemlər var və Bəşər Əsədin iqtidarda qalıb-qalmayacağı məsələsi prioritetlər sıralamasında aşağı yerlərdədir. Avropa Birliyinə gəldikdə isə ABŞ-ın liderliyi olmadan onların hər hansı ciddi beynəlxalq problemin öhdəsindən gəlməsi mümkün deyil".

❑ **E.PAŞASOY**

---

# Türk mənşəli erməni adları...

## Kardaşyan, Köçəryan kimi adlar qoymaqda ermənilərin niyyəti nədir; **Firudin Cəlilov:** "Onların çoxu dönmə ermənidir"

**Erməni dilində şəxs adlarına və sözlərə diqqət yetirəndə türk dillərinə yaxın ifadələrə rast gəlirik. Ötənlərdə də bu məsələ müzakirə mövzusu olub, indi də bu, aktuallığını qoruyub saxlayır. Buna səbəb də hiyləgər xalqın adqoymada türk adlarına oxşar adları qoymalarıdır. Robert Köçəryan, Kim Kardaşyan və bu tipli çoxsaylı erməni adlarını misal çəkə bilərik.**



Firudin Cəlilov

Türkoloqlar bildirirlər ki, əslində burada da məkrli erməni planı var. Bununla ermənilərin türk adlarını özününküləşdirmək və ənənəvi olaraq iddialarını irəli sürdükləri türk torpaqlarında yaşadıqlarını göstərmək istəyirlər.

**Sabiq təhsil naziri, tanınmış türkoloq Firudin Cəlilov** "Yeni Müsavat"a açıqlamasında Azərbaycanda şəxs adları qoyulanda belə məsələlərin nəzərə alınmadığını bildirdi: "Azərbaycanda adlar qoyulanda belə məsələlər nəzərə alınmır, çünki bunlar türkcə adlardır. Bəs nə üçün ermənilərin bəzilərinin adları türkcədir? Bu tamam başqa məsələdir. Bu, vaxtilə xristian türklərinin getdikcə kilsə tərəfindən erməniləşdirilmələri ilə bağlıdır. 1500 ildir bu proses davam edə-edə bu günə gəlib çatıb. Onlar yenə qədim türk adlarını saxlayıblar. Qarabağ erməniləri iki yerə bölünürdü, biri türk xristianlar, digəri hay xristianları idi. Türk xristianlar türkcə danışırdılar, adları da türkcə idi. Getdikcə onlar erməniləşdilər, türklükdən uzaqlaşdılar. Millət din vasitəsilə bu şəklə salındı. Məsələn, son vaxtlara qədər bir əmioğlunun adı türk adı idi, digəri isə erməni adı idi. Yəni bir ailə müsəlmanlaşmışdı, digəri xristianlamışdı. İndinin özündə bu cür hallar məhz xristianlaşan türklərlə bağlıdır. Tarixdə ermənilərlə türklərin bəzi zamanlarda bir yerdə yaşamalarının bu məsələyə dəxli yoxdur. Heç kim öz övladına başqa bir millətin adını boşuna qoymaz. Bu ən çox dinlə bağlıdır. Məsələn, bizdə Musa, İsa, Məryəm, İbrahim kimi adlar var. Bunların hamısı dinlə bağlıdır. İslam dini yaranandan sonra da müsəlman olduq. Amma bu tipli adların qoyulması ənənəsi qaldı. İndinin özündə bizdə yüzlərlə ərəb adı var. Bu adlar da dindən gəlir".

**Türkoloq bir çox ermənilərin bu adlardan canlarını qurtarmaq istədiklərini də qeyd etdi:** "Ermənilərin bu tipli türk adlarını özününküləşdirmək üçün övladlarına qoyduqlarını zənn etmirəm. Çünki onlar getdikcə bu adlardan canlarını qurtarmaq istəyirlər. Bu adlar onların tarixinə aydınlıq gətirir. Məlum olur ki, onların çoxu dönmə ermənidir".

❑ **Cavanşir ABBASLI**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 179 (6793) 29 avqust 2017

**ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Riçard Hoqlandın səlahiyyətlərini başa vurar-vurmaz mətbuata verdiyi açıqlama Ermənistanda geniş müzakirələrə səbəb olub. Amerikalı diplomatın münaqişənin əsas nizamlanma bəndlərini açıqlaması məhz Rusiya prezidenti Vladimir Putinlə Ermənistan prezidenti Serj Sərkisyanın Soçi görüşündən dərhal sonraya təsadüf etdiyindən, bu, daha çox ajiotaj doğurub.**



Elxan Şahinoğlu



# Qarabağda status-kvonun qorunması üçün daha bir cəhd

## Moskva dini liderləri bir araya gətirir; BMT Baş Məclisi çərçivəsində XİN rəhbərlərini görüşdürmək istəyən həmsədrlər İrəvanın saymaz davranışlarına reaksiya vermir; **politoloq:** "Ermənistan qeyd-şərtsiz Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayana qədər bölgədə sülh mümkün deyil"

Qeyd edək ki, R.Hoqlandın "Amerikanın səsi" radiosunun saytında açıqladığı nizamlanma bəndlərinə görə, Dağlıq Qarabağ ətrafında Ermənistan tərəfindən tutulmuş rayonlar Azərbaycanın nəzarətinə qaytarılmalıdır. Eyni zamanda bütün məcburi köçkünlərin əvvəl yaşadıqları ərazilərə qaytarılması sözügedən həll modelində əksini tapır. Bütün bunlar isə ermənilər tərəfindən hay-küylə qarşılanıb. Xüsusilə də Qarabağdakı separatçılar bu təkliflərə qəzəbli reaksiya veriblər. Erməni politoloq Arman Məlikyan *(bu adam vaxtilə qondarma "DQR"in "xarici işlər naziri" vəzifəsini daşıyıb - red.)* iddia edib ki, "Hoqlandın təklifi "ərazi qarşılığında heç nə" formulundan başqa bir şey deyil. Bu, Rusiya və Azərbaycan siyasi xadimlərinin və analitiklərinin səsləndirdiyi tezislərlə eynidir. "Belə çıxır ki, ərazilər Azərbaycana "DQR-in torpağı kimi deyil (?), sadəcə, qan tökülməsinin qarşısının alınması üçün qaytarılacaq", Məlikyan özünün facebook səhifəsində yazıb.

Separatçı qurumun daha bir nümayəndəsi Ayk Hanumyan isə problemin yeganə həllinin qondarma qurumun tanınması olduğunu bildirib. O, müharibədən öncə 4440 kv. km-lik əraziyə malik Qarabağın əvvəlki sərhədlərinə qaytarılmasının mümkünsüz olduğunu qeyd edib.

Ermənistanın təhlükəsizlik üzrə ekspertlərindən sayılan, strateji araşdırmalar mərkəzinin rəhbəri politoloq Hrant Məlik-Şahnazaryan Hoqlandın təkliflərinin artıq aktuallığını itirdiyini bildirib. Politoloq Hrant Mikaelyan isə Riçard Hoqlandın gethagetdə belə bir təkliflə çıxış etməsini təbii hesab edir. "Onun səlahiyyətləri dövründə nizamasalma prosesi ilə bağlı dəyişiklik olmayıb. Görünür, o getdikdən sonra prosesi yerindən tərpətmək üçün addım atmağa cəhd edib". Bəzi erməni siyasət ekspertləri isə məsələyə daha təmkinli yanaşmağa üstünlük verib.

Qeyd edək ki, rəsmi Bakı danışıqlara sadiqliyini nümayiş etdirərək irəli sürülən təkliflərə müsbət reaksiya verib. Ermənistan ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Riçard Hoqlandın vurğuladığı prinsipləri qəbul etdiyini etiraf edirsə, onda artıq substantiv danışıqlara başlamaq lazımdır. Bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Riçard Hoqlandın son açıqlamasını şərh edərkən deyib (Trend).

**Nazir bildirib ki, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin dövlət başçılarının Akvil, Muskoka və Los-Kabos bəyanatlarında Helsinki Yekun Aktı əsasında münaqişənin mərhələli həllinin əsas elementləri öz əksini tapıb:** "Bu elementlər də yenilənmiş Madrid prinsiplərinin fundamental əsasını təşkil edir. ABŞ-dan olan həmsədr Riçard Hoqland tərəfindən də bu prinsiplər bir daha vurğulandı. Biri digərini tamamlayan bu prinsiplərin ardıcıllığında ilkin addım Azərbaycanın Dağlıq Qarabağ regionu ətrafındakı işğal olunmuş ərazilərindən Ermənistan qoşunlarının çıxarılmasıdır. İşğal faktının aradan qaldırılması ilə məcburi köçkünlərin öz doğma torpaqlarına geri qayıtması və zəruri təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi təmin olunmalıdır. Onu da qeyd etmək lazımdır ki, Ermənistan münaqişə ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərini də yerinə yetirmir".

**E.Məmmədyarov bildirib ki, Ermənistan tərəfi bu prinsiplərin yeni olmadığını və onları qəbul etdiyini etiraf edirsə, onda artıq təfərrüatları müzakirə etmək üçün substantiv danışıqlara başlamaq lazımdır. Münaqişənin həlli ilə yaranacaq əməkdaşlıq imkanlarından erməni xalqı faydalana biləcək:** "Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, həmsədr ölkələrin dövlət başçıları səviyyəsində qəbuledilməz hesab olunan status-kvonun dəyişdirilməsi, münaqişənin tezliklə həlli və regionda davamlı sülhün təmin olunması üçün ciddi danışıqlara hazırdır".

Ermənistan hakimiyyəti hələ ki geniş müzakirəyə səbəb olan təkliflərə neqativ münasibət açıqlayıb. Xarici işlər naziri Edvard Nalbəndyan amerikalı həmsədrin yeni bir şeyi söyləmədiyini bildirib. Amerika Ermənİ Milli Komitəsi Hoqlandın bəyanatını hiddət və qəzəblə qarşılayıb, "qəbuledilməz olduğunu" bildirib. Erməni jurnalist İosif Kubatyan isə "Reqnum"da yazdığı məqaləsində amerikalı həmsədrin çıxışının təsadüfi olmadığını bildirib. Onun sözlərindən belə anlaşılır ki, son günlərdə Ermənistanın Avropa Birliyi və NATO ilə münasibətlər qurması Rusiyanı əsəbləşdirib və Moskva Ermənistanı Azərbaycan üçün daha yumşaq olan varianta razılaşmağa məcbur edib. Ancaq görünür, bu ölkənin fəlakətə doğru getdiyini anlayanlar da az deyil. Bu, keçmiş həmsədrin təkliflərinə verilən normal reaksiyalardan da görünür.

**Erməni politoloq, İrəvandakı Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Riçard Kirakosyan deyib ki, ətraf rayonların qaytarılması ermənilər üçün "ağrılı məsələdir", lakin bunsuz sülh mümkün deyil.** "Hoqlandın açıqladığı sənəddə ətraf rayonların qaytarılması prinsipi əksini tapıb ki, bu da erməni tərəfində ağrılı qarşılanır. Lakin biz başa düşməliyik ki, hansısa konstruktiv həll yolu tapmaq üçün bu məsələ həlledici əhəmiyyət kəsb edir" - ekspert deyib.

Əslində irəli sürülən təkliflərdə Ermənistanla Dağlıq Qarabağı birləşdirən dəhlizin vacibliyinin qeyd olunması işğalçıya ən böyük güzəştdir. Hoqlandın sözlərinə görə, bu dəhliz elə geniş olmalıdır ki, daşımaların təhlükəsizliyini təmin etsin, amma bütün Laçın rayonunu əhatə edə bilməz. Düzdür, referendum məsələsi heç bir halda qəbulolunmazdır. Ancaq Bakı mərhələli həll yoluna üstünlük verməklə gələcəkdə tərəfləri qane edəcək hansısa ortaq variantın qəbulunu da mümkün sayır.

Vurğuladığımız kimi, Hoqlandın açıqladığı prinsiplərə əsasən işğal altındakı ətraf rayonlar üzərində Azərbaycanın suverenliyi bərpa edilməli, o cümlədən dəhliz çıxılmaqla Laçın rayonu da qaytarılmalıdır. Dağlıq Qarabağın yekun statusu isə qarşılıqlı anlaşma və nəticələri hər iki tərəf üçün hüquqi əhəmiyyətə malik olan referendumla müəyyən edilməlidir.

Amerikalı diplomatın açıqlamasının BMT Baş Assambleyasının gələn ay keçiriləcək sessiyası ərəfəsində ortaya çıxması da maraqlıdır. Xəbər verildiyi kimi, həmsədrlər Azərbaycan və Ermənistan XİN rəhbərlərini sessiya çərçivəsində görüşdürmək istəyirlər. Prezident Pitinlə S.Sərkisyan arasında keçirilən Soçi görüşündən sonra geniş müzakirəyə səbəb olan bu sənəd-layihəyə Rusiyanın reaksiyası isə hələ bəlli deyil. İstənilən halda təəccüblüdür, İrəvanın əsas kimi qəbul etdiyi prinsiplər Ermənistanda niyə hay-küylə qarşılanır?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, adətən amerikalı həmsədrlər səlahiyyətlərini başa vurmaq ərəfəsində sözün düzünü deyirlər. "Onsuz ermənilər anlayırlar ki, Dağlıq Qarabağın ətrafını boşaltmalıdırlar. Həmin bölgələr onlara, sadəcə, danışıqlarda alver predmeti olaraq lazımdır" deyən ekspert amerikalı həmsədr Riçard Hoqlandın Dağlıq Qarabağ münaqişəsinin həlli üçün faktiki "mərhələli həll" planının yerinə yetirilməsinin vacibliyini bildirməsi günün reallığıdır:** «Ermənistan qeyd-şərtsiz Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayana qədər bölgədə sülh mümkün deyil. Əslində bunu Ermənistanda da anlayırlar və təsadüfi deyil ki, ara-sıra Dağlıq Qarabağ ətrafındakı rayonları nə vaxtsa boşaltmaq məcburiyyətində qalacaqlarını etiraf edirlər. Sadəcə, İrəvan bu rayonları qeyd-şərtsiz boşaltmaq istəmir, bu rayonlardan şantaj predmeti kimi istifadə edir, yəni deyirlər ki, əvvəlcə Dağlıq Qarabağın statusunu müəyyənləşdirəcək referendumun tarixi bilinməlidir və məhz bundan sonra rayonlar boşaldıla bilər. Bu, bizə sərf etmir. Biz Dağlıq Qarabağın, o cümlədən Şuşanın itirilməsi hesabına Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasına razı ola bilmərik. Dağlıq Qarabağ ətrafındakı rayonların ermənilərin əlində şantaj predmeti olmasından çıxarılması üçün həmin rayonların hərbi yolla azad olunmasına ehtiyac var. Məsələ burasındadır ki, erməni separatçıları Ağdam, Füzuli və digər rayonlarımızdan bufer zonası kimi istifadə edir, bununla Dağlıq Qarabağ ərazisinin təhlükəsizliyini təmin edirlər. Ağdam, Füzuli və digər rayonları azad etsək, Xankəndindəki rejimin təhlükəsizliyi ortadan qaldırılacaq. Belə olan halda danışıqlarda diktə edən tərəf biz olacağıq".

**E.Şahinoğlu xatırlatdı ki, erməni separatçılarının vaxtilə üç məqsədi olub:** "Birinci məqsədi Şuşanı işğal etmək olub ki, Xankəndi üzərindəki təhlükə sovuşsun. İkinci Laçını işğal etmək istəyiblər ki, Ermənistanla birbaşa əlaqələri olsun. Üçüncü məqsədləri Dağlıq Qarabağ ətrafındakı rayonların işğalı olub ki, özləri üçün bufer zonası yaratsınlar. Təəssüf ki, erməni separatçıları 1990-cı illərin əvvəllərində hər üç məqsədinə çatıblar. İndi bizim qarşımızdakı birinci məqsəd separatçıları bufer zonasından məhrum etməkdir. Bu, danışıqlar masasında əlimizi xeyli gücləndirəcək və bəlkə də sülh müqaviləsinin imzalanmasını sürətləndirəcək".

**Maraqlıdır, hazırda Qarabağ məsələsi ilə bağlı Rusiya və Amerikanın yanaşmasında fərq varmı, yoxsa onlar ortaq layihəni dəstəkləyir? E.Şahinoğlu:** "Amerikalı diplomatlar "mərhələli həll" planını dəstəkləyirlər, rusiyalı diplomatlar isə erməni separatçılarının mövqeyindən çıxış edərək statusun da müəyyənləşməsini vacib sayırlar. Fərq bundadır. Nəticənin olması üçün hansısa dövlət Ermənistana təzyiq etməlidir. Heç bir dövlət İrəvana təzyiq etmir, ona görə də durduğu yerdə Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayacaq".

Politoloq Nyu-Yorkda gözlənilən XİN başçılarının görüşündən fayda gözləmir. Onun fikrincə, "hər dəfə nəticəsiz başa çatan görüşlərdən biri olacaq".

Bu arada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Yuri Xaçaturovun Ermənistana səfər etməsi, prezidenti Serj Sərkisyan və digər rəsmi şəxslərlə görüş planlaşdırması da diqqət çəkir. Hər halda, Dağlıq Qarabağ məsələsi bu görüşlərdə aparıcı mövzu olacaq.

Amerika görüşünə paralel olaraq dini liderlərin görüşü də planlaşdırılır. Belə ki, sentyabrın 8-də bütün ermənilərin katalikosu 2-ci Qaregin və Qafqaz müsəlmanlarının Şeyxi Hacı Allahşükür Paşazadə görüşəcək. Görüş Moskva və bütün Rusiyanın patriarxı Kirillin vasitəçiliyi ilə təşkil olunacaq.

İrəvanın davranışları, hətta Hoqlandın güzəştli təkliflərinə verdiyi etinasız münasibət ondan xəbər verir ki, istənilən səviyyədə aparılan danışıqlar, sadəcə, böyük müharibə riskini minimuma endirməyə xidmət edir. Bu isə Ermənistana hava və su kimi lazımdır...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 179 (6793) 29 avqust 2017

# “Terror təşkilatlarını böyük dövlətlər yaradır və saxlayır”

## Tanınmış politoloq: “Dövlətlər terror təşkilatlarına hər cür dəstəyi tamamilə kəssələr, bu təşkilatlar cəmi bir il duruş gətirə bilərlər və yox olub sıradan çıxarlar”

**“Terror təşkilatlarının sayı, aktivliyi, əhatə dairəsi 15-16 il öncələrlə müqayisədə artıb. Bunun bir səbəbi də dünya düzənində sivilizasiyalararası gərginliyin yaranması ilə bağlıdır”. Bu barədə politoloq Qabil Hüseynli “Yeni Müsavat”a açıqlamasında bildirib. Onun sözlərinə görə, sosializm sisteminin çökməsi ilə dünyada belə bir meyl üstünlük təşkil edirdi ki, sivilizasiyalar arasında qarşıdurma sona çatır, bundan sonra sivilizasiyaların həmrəyliyi prosesi başlayacaq. Lakin belə olmadı. Əksinə, münasibətlər get-gedə gərginləşdi. Bu isə yeni-yeni terror təşkilatlarının yaradılmasına təkan verdi.**

Q.Hüseynli qeyd etdi ki, terror təşkilatları bir qayda olaraq ayrı-ayrı dövlətlər tərəfindən maliyyələşdirilir və yaradılır. Lakin daha çox dini pərdə altında formalaşır: “Dövlətlər terror təşkilatlarından özlərinin geosiyasi, iqtisadi planlarını həyata keçirmək üçün istifadə edirlər.

Odur ki, terror qruplarının yaranmasında, fəaliyyət göstərməsində müxtəlif dövlətlərin rolu şəksizdir. Hər kəsə bəllidir ki, uzun müddət İŞİD-i Səudiyyə Ərəbistanının və bir neçə ərəb ölkəsinin adı ilə bağladılar. İŞİD-in yaradılmasında bəzi Qərb dövlətlərinin də rolunun olduğu dəfələrlə mediada yazılıb, fikirlər irəli sürülüb. İŞİD-in komanda heyətini İraqın Səddam Hüseyn hakimiyyəti dövründəki generalları və yüksək vəzifəli ordu mənsublarından formalaşdırdıqları da məlumdur. Bir sıra terror təşkilatlarının yaradılması və ayaq üstə saxlanmasında isə İranın rolunun olduğu barədə zaman-zaman fikirlər irəli sürülüb.

Dövlətlər bir-birilərinin müəyyən bölgələr üzərində təsirlərini zəifləlmək üçün terrorçu təşkilatlardan da istifadə edirlər. Terror qruplaşmalarına maliyyə dəstəyi, silah-sursat ötürülməsi də bununla bağlıdır. Bəzi dövlətlər isə zaman keçdikdən sonra bir vaxtlar özlərinin yaratdıqları, dəstəklədikləri terror təşkilatlarının hədəfinə çevrilirlər. Lakin bu, digərlərinə dərs olmur".

**Politoloq vurğuladı ki, terror təşkilatlarının yaradılmasında, ayaq üstə saxlanmasında da super dövlətlər də iştirak ediblər:** “Məsələn, ABŞ-ın adı bu sırada zaman-zaman xüsusilə qeyd edilib. ABŞ Suriya məsələsinin ilk vaxtlarında Türkiyə ilə birgə hərəkət edirdi. O zaman Suriya azadlıq ordusunun tərkibində rəngarəng qruplaşmalar birləşmişdi. Bu qruplaşmaların içərisində "Əl-Qaidə"nin Yaxın Şərqdəki davamçısı "Əl-Nüsra" xüsusilə fərqlənirdi. O zamanlar "Əl-Nüsra" cəbhəsinə silah təminatında və təlim keçirilməsində ABŞ iştirak etdi. Onlar "Əl-Nüsra"ya Suriya azadlıq ordusunun tərkib hissəsi kimi baxırdılar. Lakin sonradan "Əl-Nüsra"dan dəstəyi çəkdilər.


Qabil Hüseynli

Rusiyanın isə PKK-nın yaradılması və ayaq üstə qalmasında əlinin olduğu haqda saysız-hesabsız açıqlamalar, iddialar, fikirlər indiyə qədər olub. Hələ SSRİ zamanında yaradılan PKK-ya o zaman Moskvanın dəstəyinin olduğu bildirilir. Bu gün isə PKK-nın bir sıra problemlərinin həll edilməsində Rusiyanın rol oynadığı deyilir".

**Q.Hüseynli hesab edir ki, dövlətlər terror təşkilatlarına hər cür dəstəyi tamamilə kəssələr terror təşkilatları cəmi bir il duruş gətirə bilərlər və yox olub sıradan çıxarlar. Çünki terror qruplarının uzun müddət yaşamasında, gücləmməsində mütləq hansısa dövlətin və dövlətlərin rolunun olması şübhəsizdir. Onları ayaq üstə dövlətlər saxlayır: “Artıq İŞİD-ə dəstək demək olar ki, yox dərəcəsinə enib. Ona görə də İŞİD-in öhdəsindən çox asanlıqla gəlmək mümkün olur”.**

Həmsöhbətimiz onu da dedi ki, terror təşkilatlarının sırasında yeniyetmələrin sayının getdikcə çoxalmasının arxasında dayanan məqamlar var. Bu da ondan ibarətdir ki, yeniyetmələr və uşaqların beynini yumaq, onlara istənilən ideologiyanı qəbul etdirmək daha asandır, onlar xüsusi xidmət orqanlarının diqqətini az cəlb edirlər. Bu və digər amilləri nəzərə alıb yeniyetmələri terror qruplarına cəlb edirlər.

❑ Etibar SEYİDAĞA

# Bakıdan başqa ölkəyə 29 avroya uçmaq mümkün olacaq

## Ekspert: “Bu dəyişikliklər ölkədə turizmin inkişafına müsbət təsir göstərəcək”



**Uzun müddətdir Bakıdan digər xarici ölkələrə uçuşun qiymətinin baha olması ilə bağlı sosial şəbəkələrdə müzakirələr aparılırdı. Artıq sentyabrın 1-dən etibarən Bakıdan Moskva, Kiyev, Antalya, Kazan, Mineralnıye Vodı, Tiflis və Tehrana, oktyabrın 29-dan isə tətbiq ediləcək qış uçuş cədvəlinin başlamasıyla Bakıdan İstanbula və Sankt-Peterburqa, eləcə də Gəncədən Moskvaya uçuşlar olacaq.**

Bütün istiqamətlər üzrə minimal tarif bir tərəfə 29 avro təşkil edir. “Buta Airways” tipik lou-koster sxemi üzrə fəaliyyət göstərir və baqajın daşınması, təyyarədə isti yeməklər, yer seçimi və digər xidmətlər əlavə ödəniş müqabilində təklif ediləcək.

Avqustun 25-də prezident İlham Əliyev “Azərbaycan Hava Yolları” QSC-nin nəzdində yaradılan “Buta Airways” aviaşirkətinin Bakıya gətirilən ilk “Embraer 190" təyyarəsi ilə tanış olub. ”Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov “Buta Airways” aviaşirkətinin yeni “Embraer 190" təyyarəsi barədə dövlət başçısına məlumat verib. Bildirilib ki, ekonom sinif modifikasiyalı bu təyyarə 106 sərnişin tutumuna malikdir.

Yaxın günlərdə şirkətin daha bir yeni “Embraer 190" təyyarəsinin Bakıya gətirilməsi nəzərdə tutulur. Ümumilikdə isə aviaşirkətin havagəmiləri parkındakı "Embraer-190" təyyarələrinin sayı 8-ə çatdırılacaq.

**AZAL-ın mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənski “Yeni Müsavat”a açıqlamasında “Buta Airways”in milli rəmzlərlə bəzədilmiş təyyarələrinin Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil edəcəyinə inandığını bildirdi. Onun sözlərinə görə, bu, eyni zamanda ölkədə turizmin daha da inkişaf etməsini təmin edəcək. O, qiymətlərin məsafədən asılı olaraq dəyişəcəyini dedi:** “Lakin bütün istiqamətlər üzrə minimal tarif bir tərəfə 29 avro təşkil edir”.

Qeyd edək ki, minimal “Büdcə” tarifi ilə alınan aviabiletlər qaytarıla və ya dəyişdirilə bilməz. “Standart” tarifi ilə alınan aviabiletləri dəyərinin 50 faizi tutulmaqla dəyişmək və ya qaytarmaq mümkün olacaq. Yuxarıda da qeyd edildiyi kimi, Lou-kost aviaşirkət olaraq, “Buta Airways” aviareyslərdə baqajın, əl yükünün daşınması, təyyarə göyərtəsində isti yeməklər, eləcə də təyyarədə yer seçimi kimi əlavə xidmətləri ödəniş müqabilində təklif edəcək.

Bundan başqa, üç ölçünün cəmi üzrə 110 santimetrdən artıq olmayan ölçüdə və çəki məhdudiyyəti tətbiq olunmayan əl yükünün daşınması 25 avro təşkil edəcək. Analoji qiymətə çəkisi 23 kiloqrama qədər (daxil olmaqla) və üç ölçünün cəmi üzrə 158 santimetrdən artıq olmayan ölçüdə qeydiyyatdan keçirilən baqajı daşımaq mümkün olacaq. Saytda və ya kassada öncədən baqaj yeri üçün ödəniş edildikdə qiymət 20 avro təşkil edəcək.

“Buta Airways”in reyslərində əlavə opsiyalar kimi təyyarə salonunda komfortlu yerlər təqdim olunacaq. Birinci sırada və qəza çıxışının yanında ayaqlarınız üçün daha geniş sahəsi olan yerlər 25 avro, ön sıralarda prioritet yerlər 15 avro təşkil edəcək. Uçuşa qeydiyyat aviaşirkətin saytında və müstəqil qeydiyyat köşklərində pulsuz olaraq mümkün olacaq. Bu, hava limanındakı qeydiyyat masalarında isə 3 avro təşkil edəcək.

Yaxın zamanda aviabiletlərin saytda, kassalarda və həmçinin rəsmi agentliklərdə satışına başlanılacaq. Bütün ödənişlər uçuşun başladığı ölkənin yerli valyutasında Mərkəzi Bankın ödəniş gününə olan məzənnəsi ilə həyata keçiriləcək.

Aviaşirkətin bütün reyslərində sendviçlər və su pulsuz təqdim olunacaq. İsti yeməyi aviabiletin alınması prosesi zamanı 7,90 avro ödəniş etməklə öncədən sifariş etmək mümkün olacaq. Həmçinin təyyarənin göyərtəsində müxtəlif içkilər və soyuq qəlyanaltılar əldə etmək mümkün olacaq.

**“Yeni Müsavat”a danışan iqtisadçı Fikrət Yusifova görə, bu, doğrudan da ölkədə turizmin inkişafına təkan verəcək:** “Ölkədə turizmin inkişafına təkan verəcək bir sıra amillər var. Bunlardan biri də gəliş və gediş xərcləridir. Bu gün turizmin inkişafı üçün çox ciddi zəruri addımlar atılıb. Artıq ölkədə Turizm Şurası da yaradıldı və bu istiqamətdə ölkə prezidentinin sərəncamı qəbul edildi, turizm zonaları müəyyənləşdi. Yeni inkişaf üçün xeyli sayda tədbirlər görülür. Bütün bunların hamısı ölkəyə daha çox turist cəlb etmək məqsədləri güdür. Bu kontekstdə atılan addımlardan biri də hava daşımaları zamanı yeni tariflərin tətbiqidir. Turist bir ölkəyə getmək qərarını verirsə, bütün şərtləri saf-çürük edir. Bunlardan ən başlıcası ölkədəki ictimai siyasi sabitlikdir ki, Azərbaycanda bu baxımdan vəziyyət ürəkaçandır. Son dönəmlərdə Türkiyədə, Misirdə baş verən hadisələr fonunda orada turizm xeyli gerilədi. İnsanlar ora turist kimi getmək qərarından vaz keçdilər. Azərbaycanda isə ictimai-siyasi vəziyyət sabitdir. Ölkəyə gəlmək üçün viza rejiminin sadələşdirilməsi istiqamətində də addımlar atılır. Nəticə etibarilə qeyri-neft sektorunun əhəmiyyətli bir hissəsi olan turizmin inkişafının yüksək səviyyəyə çatdırılması istiqamətində işlər görülür. Turistlərin sayını 6-8 milyona çatdırarıqsa, hesab edirəm ki, bu sahənin inkişafı istiqamətində qarşıya qoyduğumuz məqsədlərin birinci mərhələsini yekunlaşdırmış olarıq. Buna gedilir və gözlə də görünür ki, paytaxtda nə qədər əcnəbi vətəndaş var. Lakin bir neçə il öncə belə deyildi. Deməli, yaradılan ab-hava turizmin inkişafına meydan açıb. Eyni zamanda hava daşıması sahəsində rəqabət mövcuddur. Məsafə eyni olub, qiymətlər fərqli olanda turist artıq pul xərcləmək istəmir. Təkcə turist yox, bunu hər bir vətəndaş düşünür. Məndə olan məlumata görə, bəzi vətəndaşlar qiymətlər baha olduğu üçün Gürcüstan vasitəsilə uçurdular. Bunun qarşısını almaq üçün yeganə yol düzgün qiymət siyasəti yürütməkdir. Ona görə də atılan addım məqbul sayılmalıdır”.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 179 (6793) 29 avqust 2017

**Yay mövsümü başlayandan tez-tez redaksiyamıza müxtəlif ünvanlardan suyun tərkibinin çirkli olması ilə bağlı şikayətlər daxil olur. Gələn şikayətlərdə suyun bulanıq olması, paslı olması, qaynadıqdan sonra suyun dibində çoxlu çöküntünün olması, su krantının ucluğunda daşın yığılması kimi hallar qeyd olunur. İçməli suyun səhhətimizə mənfi təsir etdiyini deyən şikayətçilər dövlətin bu sahəyə nəzarətinin artmasını tələb edirlər.**

# İçməli suyun içindəki zəhər...

Bəs görəsən, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən mənzillərə verilən suyun tərkibində həqiqətənmi problem var? Bu nədən yaranır? Niyə əhalinin sağlamlığı diqqətə alınmır?

"Yeni Müsavat"a danışarkən bu suala cavab verən **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** bildirdi ki, bu dövlət qurumunun anbarlarında saxlanılan suyun keyfiyyəti ilə bağlı heç bir problem yoxdur: "Mən 4 il öncə Marseldə keçirilən 16-cı su Konqresində iştirak etmişəm. 25 min insanın çağırıldığı bir Konqresdə suyun təmizlənməsi, saxlanması barədə xeyli məlumat əldə etdim. Daha sonra gəlib həmin bilgilər əsasında "Azərsu"nun sutəmizləyici qurğularında monitorinq keçirdim. Nəzəri baxımdan "Azərsu"nun suyu normal təmizlədiyi qərarına gəldim. Lakin su infrastrukturu o qədər köhnəlib ki, ayrı-ayrı yerlərdə tez-tez qəzalar olur. Eləcə də bəzən kənar sular, yağış suları, çirkab suları içməli su xəttinə qarışır. Bu isə infrastrukturun köhnəlməsindən irəli gəlir. Ona görə də tez-tez qəza olan yerlərdə təmir işləri gedən zaman bu hadisə baş verir. Əlbəttə, əhali haqlıdır. Krantın sonluğuna daş yığılır, palçıqlı su gəlir, təmizlənmiş su gəlib əhaliyə çatmır. Tikintiyə icazə verən dövlət qurumları ilə "Azərsu" arasında sanki bir razılaşma yoxdur. Vətəndaşdan rüşvət alıb dağın başında yerləşən bir torpaq sahəsini ona satırlar, orada ev tikməyə icazə verirlər, daha sonra hamı yığışıb tələb edir ki, "Azərsu" oraya su və kanalizasiya xətti çəksin. Belə çıxır ki, "Azərsu" insanların arxasınca getməlidir. Bu, anormal haldır".

**Ekspertin sözlərinə görə, önəmli olan normal infrastrukturun yaradılmasıdır:** "Nə qədər ki, suötürücü boruların dəyişdirilməsi baş verməyib, bu hadisələr yaşanacaq. Bu vəziyyətdən istifadə edən su filtrçiləri guya evlərdə monitorinq keçirirlər və heç bir sertifikatı olmayan, saxta yollarla düzəltdikləri filtrləri evlərə satırlar. Bizim ofisimizdə də su filtrçilərinin istifadə etdikləri suyun tərkibini yoxlayan cihazlar var. Təxminən 20 gün öncə bizim Amerikadan dönən bir əməkdaşımız Nyu-Yorkdan evlərə verilən sudan bir nümunə götürərək gətirdi. Hazırda da həmin suyun nümunələri bizim ofisimizdədir. Nyu-Yorkdan krantdan gələn su ilə Bakıda krantdan gələn suyu həmin cihazlarla təcrübə etdik, nəticələr eyni oldu. Hər ikisinin dibində tünd sarı təngdə çöküntü yarandı. Su filtrçilərinin bəsit üsullarla apardığı təcrübələr suyun tərkibi haqqında heç nə demir. Su o qədər mürəkkəb bir məhsuldur ki, hansı orqanizm üçün onun hansının yaxşı, hansının pis olmasını müəyyən etmək hələ mümkün olmayıb. Daha çox qəzalar baş verərkən mənzillərə verilən suyun tərkibində problem yaranır".

**E.Hüseynov vurğuladı ki, "Azərsu"nun sutəmizləyici qurğularına etibarı var:** "Ancaq su xətlərindəki problem abonentin problemi deyil. Gərək hökumət bununla bağlı investisiya yatırsın, həmin xətləri yeniləsin. Bir məsələ də var ki, Azərbaycanda suyun qiyməti çox ucuzdur. Burada insanlar hamamda rahat çimə bilir. Ancaq Avropa ölkələrində, məsələn, Almaniyada belə deyil. Orada insanlar həddindən artıq qənaətlə su işlədirlər. Mən Almaniyaya qonaq getmişdim, hamamda yuyunarkən qonaq qaldığım evin sahibi çox üzr istəyərək bildirdi ki, hamamda bu qədər qalmaq olmaz, suya qənaət etmək lazımdır. Bizdə isə suyun qiyməti yetərincə aşağıdır, insanlar bunun qədrini bilməlidirlər. Ancaq su infrastrukturunun tezliklə dəyişməsi fikri ilə razıyam. Mənzillərə paylanan suda problem olmasının bir səbəbi də yeni tikililərin özünün su anbarlarının olmasıdır. Həmin anbarlarda yığılıb saxlanılan, sonradan mənzillərə paylanılan suyun keyfiyyəti normal olmaya bilər. Hətta bizdə olan məlumatlara görə, bu anbarlar təmizlənmədiyindən suyun içində ölmüş həşəratlar belə var. Mən yeni binalarda yaşayan vətəndaşlara tövsiyə edirəm ki, vaxtaşırı həmin su anbarlarına nəzarət etsinlər və heç olmasa ildə bir dəfə təmizlənməsinə nail olsunlar".



**Eyyub Hüseynov:**
"Su infrastrukturu o qədər köhnəlib ki, yağış, çirkab suları içməli su xəttinə qarışır"



**Anar Cəbrayıllı:**
"Bu gün "Azərsu"nun Ceyranbatandan, Kürdən, Oğuz-Qəbələdən, Şollardan gətirdiyi suyun keyfiyyəti standartlara tam uyğundur"

**Anar Cəbrayıllı isə mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, təmsil etdiyi qurumun mənzillərə verdiyi suyun keyfiyyəti ilə bağlı heç bir iradı qəbul etmir:** "Bu gün "Azərsu" Səhmdar Cəmiyyətinin müxtəlif mənbələrdən, Ceyranbatandan, Kürdən, Oğuz-Qəbələdən, Şollardan gətirdiyi suyun keyfiyyəti standartlara tam uyğundur. Bizim əhaliyə verdiyimiz suya nəzarəti Gigiyena və Epidemiologiya Mərkəzi həyata keçirir. Biz istehsalçı, emalçı və paylayıcı şirkətik. Suya dövlət nəzarətini isə bu orqan həyata keçirir. Ona görə də bu gün kim desə ki, bizim suyumuzda problem var, bu doğru deyil. Ola bilər ki, lokal xarakterli problemlər yaşansın. Ancaq bunun kütləviliyi mümkün deyil. Əsas şikayətlər suyun bulanıqlığı ilə bağlıdır. Bizim qaynar xəttimizə də gündə iki və ya üç müraciət gəlir ki, su bulanıqdır. Bu şikayətlər Suraxanıdan, Qaradağdan, Binəqədidən və başqa qəsəbələrdən gəlir. Araşdırırıq və baxırıq ki, bunlar hamısı standartlara uyğundur. Bir problem də insanların həyət evlərinə özlərinin çəkdikləri kommunikasiya xətlərindədir. Məsələn, insanlar özləri 10 il öncə yerin üstü ilə dəmir boruda su çəkiblər. Artıq həmin boru köhnəlib və paslanıb. Ola bilər ki, bir müddət su kəsilib, sonra yenidən veriləndə həmin borunun içindəki pas suya qarışsın. Biz "Azərsu" Açıq Səhmdar Cəmiyyəti olaraq tam əminliklə deyə bilərik ki, əhaliyə verdiyimiz suyun keyfiyyəti ilə bağlı problem yoxdur".

**Supaylayıcı şəbəkələrdə köhnəlmiş boruların suyu çirkləndirməsinə gəlincə, Anar Cəbrayıllı bu iradla razılaşmadı:** "Bizim anbarlardan çıxan suyun keyfiyyəti tam normaldır. Evlərə gedən suyun də 99,9 faizində problem yoxdur, 0,1 faizində isə mən dediyim hallarda problem ola bilər. Bir də hansısa ərazidə su xəttində qəza baş verərkən, suda lillənmə ola bilər. Köhnə xətlərdə verilən suyun keyfiyyətində də problem yoxdur. "Azərsu" bəzi ərazilərdə ötən əsrin 50-ci illərində çəkilmiş xətlərlə su paylayır. Ancaq bu o demək deyil ki, suyun tərkibi korlanır. Həmin xətlər daim təzyiq altındadır və daim su olan xətlərdə keyfiyyətlə bağlı problem ola bilməz".

❑ Nərgiz LİFTİYEVA



# Müharibə veteranının mülkü mənimsənilib

## İkinci Dünya müharibəsi iştirakçısı torpağının yarısını satıb, öz adında qalan hissə isə naməlum şəxslərin adına keçib

**Bakı şəhər sakini Abbasova Solmaz Həsənbala qızı redaksiyamıza gələrək şikayətlənib. Şikayətçi qeyd edib ki, İkinci Dünya müharibəsi veteranı olmuş atası Əliyev Həsənbala Qüdrət oğlunun adına olan torpaq sahəsi müəmmalı şəkildə başqasının adına keçirilib:**

"Atam 2004-cü ildə Bakı şəhəri, Sabunçu rayonu, Vişnyovka-1 bağ sahəsi ünvanında yerləşən 901 saylı 12 sot bağ sahəsində yerləşən 14,17 kvm sahəli bağ evini özəlləşdirərək, Zenfira adlı qadına satıb. Qeyd etdiyim kimi, atam yalnız bağ evini həmin qadına satıb, 12 sot torpaq sahəsini özəlləşdirmədiyi üçün onun adında qalırdı. Yəni həmin ərazi alqı-satqı predmeti olmamışdı. Hazırda mən atamın hüquqi varisi və ailə üzvüyəm. Bu yaxınlarda həmin 12 sot torpağı atamın adına özəlləşdirib, daha sonra öz adıma keçirmək istəyirdim. Bu məqsədlə Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə müraciət etdim. 2011-ci ildə mənə cavab verildi ki, bu mümkün deyil, çünki naməlum bir fiziki şəxsin adına keçirilib. Sonradan məlum olub ki, Zemfira adlı qadın 14,17 kvm sahəli bağ evini aldıqdan sonra qanunsuz şəkildə müxtəlif yollarla 12 sot torpaq sahəsini də öz adına keçirib".

**Şikayətçinin sözlərinə görə, mübahisəli torpaq sahəsi sonradan 3 nəfərə satılıb:** "Araşdırma apardım, məlum oldu ki, Zemfira adlı qadın qanunsuz şəkildə həmin ərazini 3 nəfərə satıb. Hazırda həmin şəxslər şikayətçidirlər.

Aidiyyəti orqanlardan xahiş edirəm, mənim hüquqlarımı bərpa edib, atamın adına olan 12 sot topağın yeganə vərəsə kimi mənim adıma keçməsinə köməklik göstərəsiz. Məsələ ilə bağlı müxtəlif qurumlara müraciət etsəm də, məqsədli şəkildə hüquqlarım pozulur".

Məsələ ilə bağlı qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 179 (6793) 29 avqust 2017

# İsmayıllıda qanlı hadisə planlaşdıran terrorçu məhv edildi




İsmayıllıda terror aktları planlaşdıran dini ekstremist Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşları tərəfindən məhv edilib. DTX-nin rəsmi məlumatına görə, terrorçuluğa qarşı mübarizə istiqamətində davam edən araşdırmalar zamanı ölkə hüdudlarından kənarda silahlı münaqişələr, terror aktları törədən dini ekstremist, terror təşkilatına qoşulub həmin təşkilatdan maliyyə vəsaitləri qəbul etmiş Azərbaycan vətəndaşı Cavadov Yaşar Oktay oğlunun odlu silah və partlayıcı maddələr əldə etməsi, dövlət təsisatına hücum edərək terror aktı törətməyə hazırlıq hərəkətləri müəyyən edilib.

DTX-də başlanılmış cinayət işi üzrə 2017-ci il avqustun 27-də İsmayıllı şəhəri ərazisində həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri zamanı Yaşar Cavadov saxlanılmasına silahlı müqavimət göstərərək xidməti vəzifələrini yerinə yetirən əməkdaşlara ictimai yerdə odlu silahdan atəş açıb, cavab tədbiri olaraq xüsusi əməliyyat qrupu tərəfindən məhv edilib.

Axtarışlar zamanı xaricdə fəaliyyət göstərən terror təşkilatının maliyyələşməsi prosesinə aid, habelə iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər aşkar edilib.

İsmayıllı Rayon İcra Hakimiyyətinin səlahiyyətli nümayəndəsi Məhərrəm Əhmədov AzVision.az-a bildirib ki, xüsusi əməliyyat zamanı məhv edilən ekstremist 1993-cü il təvəllüdlü Cavadov Yaşar Oktay oğlu əslən rayonun Qalacıq kəndindənir.

"O, valideynləri ilə birlikdə rayonun mərkəzində yaşayırdı. Əslən İsmayıllının Qalacıq kəndindəndirlər. Yaşar subaydır, ailə qurmayıb. Bir qardaşı var, o da namaz qılır, saqqal saxlayır. Atası fəhləliklə ailəsini saxlayır. Anası isə evdar qadındır, normal ailə olublar. Heç kimin onlardan şikayəti olmayıb. Yaşar radikallara qoşulandan sonra tamam dəyişmişdi. Əqidəsi taraz deyildi. Qardaşı yaxşı oğlandır. Deyəsən, o da kiminsə təsirinə düşüb.

Məndə olan məlumata görə, Yaşar İsmayıllıda terror törətmək istəyib. Gecə saat 3-də üzərində silahla evdən çıxıb. Onun məqsədi hansısa dövlət qurumunun binasında terror törətmək olub. Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları dərhal əməliyyat keçirərək, onun çirkin planının qarşısını alıblar. Nəticədə Yaşar Cavadov zərərsizləşdirilib".

M.Əhmədovun sözlərinə görə, Y.Cəfərovun dəfn mərasimində cəmi 10-15 nəfər iştirak edib.

**İcra rəsmisi əlavə edib ki, öldürülən Y.Cəfərovun yaxın dostu bir müddət əvvəl rayonda partlayış törədib:** "Onun dostu bazara qumbara atmışdı. Həmin hadisə zamanı bir neçə nəfər xəsarət almışdı".

## Generalın villasından oğurlanan külli miqdarda qızılın və qulluqçunun taleyi...

**Generalın evindən 2015-ci ildə edilən oğurluqla bağlı aparılan araşdırmalar davam edir. Musavat.com xəbər verir ki, Dövlət Gömrük Komitəsinin generalı Qambay Əliyevin evindən çamadandakı qızılları oğurlamaqda təqsirləndirilən şəxs həmin villada qulluqçu işləmiş Sədaqət Məmmədovadır. Qulluqçunun işinə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılır.**

2015-ci ildə hadisədən bir neçə gün sonra şübhəli şəxs qismində saxlanılan S.Məmmədova barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilmiş, sonra isə ev dustaqlığına buraxılmışdı. Çünki onun törətdiyi deyilən oğurluq əməlini sübut edən kifayət qədər faktlar yox idi.

Cinayət Məcəlləsinin 177-ci (oğurluq) maddəsi ilə təqsirli bilinən S.Məmmədovanın cinayət işi üzrə məhkəmə prosesinə hakim Rahib Salmanov sədrlik edir.

Sonuncu iclasda jurnalistlər məhkəmə zalından çıxarılıb. Buna səbəb zərərçəkmiş şəxsin müdafiəçisinin etirazı olub. Vəkil jurnalistlərin məhkəmə zalına buraxılmamasını istəyib. Hakim isə vəkilin istəyini yerinə yetirib və jurnalistlər zaldan çıxarılıb.

Məlum olub ki, məhkəməyə işdə adı keçən generalın gəlməsi məsləhət bilinməyib. Ötən prosesdə təqsirləndirilən S.Məmmədova generalın da məhkəmədə ifadə verməsini istəyib. Amma zərərçəkmiş tərəf işə general olmadan baxılmasını istəyib. Məhkəmə yenə də vəkilin istəyini təmin edib.

Prosesin davamında məhkəmə istintaqının yekunlaşdığı elan olunub. Dövlət ittihamçısı çıxış üçün vaxt istəyib.

Qeyd edək ki, oğurluq hadisəsi general Qambay Əliyevin anası Böyükxanım Əkbərovanın adına olan İzzət Həmidov küçəsi ev 7, mənzil 8-də baş verib. General da anasının adına olan həmin villada yaşayır.

Generalın anası oğurluq hadisəsindən bir neçə ay sonra dünyasını dəyişib. Mərhuma məxsus mənzildən ümumi dəyəri 160 min manata yaxın qızıl-zinət oğurlandığı qeyd edilir. Oğurlanan qızıl-zinət əşyalarının mərhuma məxsus olduğu bildirilir.

Sədaqət Məmmədova isə oğurluq hadisəsində generalın kürəkəni Ramin Qədirovdan şübhələnir. S.Məmmədova məhkəmə prosesində də bunları dilə gətirmişdi. S.Məmmədova əsas olaraq göstərir ki, oğurluq hadisəsindən əvvəl Ramin Qədirov Böyükxanım Əkbərovadan 200 min pul istəyib. Generalın anası isə Ramin Qədirova 4 min manat verib. Həmçinin Ramin Qədirov arvadının ondan xəbərsiz ev aldığından xəbər tutub və intiqam almaq istəyib.

S.Məmmədova həbsdən azad edildikdən sonra mətbuata açıqlamasında deyib ki, generalın adını bu işdə hallandırmamağa çalışırlar. Onun iddiasına görə, oğurlanan qızıllar generalın olsa da anasının adı çəkilir.

Bildirək ki, bu işdə zərərçəkmiş tərəfin vəkilləri generalın və ailə üzvlərinin adının hallanmaması üçün çalışırlar.

Qeyd edək ki, bu iş üzrə şahid qismində generalın kürəkənləri və qızları da məhkəmədə ifadə verib. Ancaq generalın qızları dindirilərkən məhkəmə prosesi qapalı keçirilmişdi. Məhkəmənin qapalı keçirilməsi ilə bağlı təklifi isə zərərçəkmiş tərəf irəli sürmüşdü.

❑ **İlkin MURADOV**

## Bakıda qaydaları pozan avtobus sürücüsü işdən azad edildi

**40 nömrəli marşrut xətti üzrə hərəkət edən sərnişin avtobusunun (Dövlət Qeydiyyat Nömrəsi 10-TG-832) sürücüsünün metronun "Neftçilər" stansiyası yaxınlığındakı piyada keçidində yol hərəkəti qaydalarını kobud şəkildə pozmasına dair yayılan videogörüntü ilə bağlı Bakı Nəqliyyat Agentliyində araşdırma aparılıb.**

Agentlikdən «Trend»ə verilən məlumata görə, araşdırmaya əsasən, avtobusun sürücüsünün Hacıyev Rahib Nurəddin oğlu olduğu müəyyən edilib. 40 nömrəli müntəzəm marşrut xəttinin müvəqqəti istismarını həyata keçirən daşıyıcı və sürücü dərhal Bakı Nəqliyyat Agentliyinə çağırılıb və izahatları alınıb. Kobud qayda pozuntusuna yol verdiyini etiraf edən sürücü Bakı Nəqliyyat Agentliyinin tələbi əsasında 40 nömrəli müntəzəm marşrut xəttinin istismarını həyata keçirən daşıyıcı tərəfindən işdən azad edilib. Daşıyıcıya isə bir daha sürücülərinin analoji hallara yol verməməsi üçün zəruri tədbirlər görülməsi ilə bağlı xəbərdarlıq edilib.

Agentlik bir daha bəyan edir ki, ictimai nəqliyyatda yol hərəkəti qaydalarına, qanunvericiliyin tələblərinə əməl etməyən, sərnişinlərin həyatını təhlükəyə ataraq müəyyən olunmuş qaydaları pozan daşıyıcılar, eləcə də sürücülər barədə bundan sonra da ən sərt şəkildə tədbirlər görüləcək.



## Bakıda tələbə faciəvi şəkildə öldü

**Bakıda dənizdə boğulma hadisəsi baş verib. Musavat.com lent.az-a istinadən xəbər verir ki, Sabunçu rayonu Pirşağı qəsəbəsindəki çimərlikdə Bakı şəhər sakini, 1995-ci il təvəllüdlü Əliyev Əli Akif oğlu dənizdə olarkən boğularaq ölüb.**

Ə.Əliyev Azərbaycan Tibb Universitetinin 6-cı kurs tələbəsi olub.

Faktla bağlı araşdırma aparılır.

## 12 yaşlı qızı zorlayan atalığı həbs edildi

**Balakən rayonunda qeyri-rəsmi nikahda yaşadığı qadının qızını zorlayaraq onu hamilə qoyan şəxs məhkəmə qarşısına çıxarılıb. Lent.az xəbər verir ki, Balakən Rayon Məhkəməsinin qərarı ilə 12 yaşlı C.Ş-nı zorlayaraq bəkarətini pozan və onun hamilə qalmasına səbəb olan Şindiyev Elçin Qədir oğlu barəsində istintaq dövrü üçün 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Faktla bağlı Cinayət Məcəlləsinin 149.3.3-cü (Zorlama, təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə) maddəsi ilə açılmış cinayət işinin istintaqı davam etdirilir.**

Bu arada məlum olub ki, atalığı tərəfindən zorlanan yeniyetmə qızın anası onun doğma atası ilə 7 il əvvəl ayrılıb. Bundan sonra uşağın anası Elçinlə tanış olub və dini kəbin kəsdirərək birgə yaşamağa başlayıblar. Bir müddət əvvəl isə onlar kafe icarəyə götürərək birgə işləməyə başlayıblar. 12 yaşlı qızın zorlanması hadisəsi də anası kafedə işdə olarkən baş verib. Evdə heç kimin olmamasından istifadə edən Elçin Şindiyev onu zorlayıb.

Bildirilir ki, C.Ş-nın 22-25 həftəlik hamilə olması o, bacısı və babası ilə birgə xəstəxanaya müraciət edərkən məlum olub. Qızın anası bildirib ki, övladının səhhətindəki problemdən şübhələndiyi üçün onu bacısı və babası ilə həkim müayinəsinə göndərib, işi olduğu üçün özü xəstəxanaya getməyib.

Qeyd edək ki, törətdiyi əməl sübuta yetirilərsə, Elçin Şindiyevi səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası gözləyir.

## Qurban bayramı ilə əlaqədar baytarlıq nəzarəti gücləndirildi

**Bu il sentyabrın 1-2-də qeyd olunacaq Qurban bayramı ilə əlaqədar dövlət baytarlıq nəzarətinin gücləndirilməsi haqqında Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti tərəfindən (DBNX) əmr verilib.**

DBNX-nin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, əmr respublikanın rayon və şəhərlərində qurbanlıq heyvanların baytarlıq-sanitariya tələblərinə cavab verməyən və ticarət üçün xüsusi ayrılmış yerlərdən kənarda satışının və kəsiminin qarşısının alınması, ətlərin baytarlıq-sanitariya ekspertizasından keçirilməsi məqsədilə imzalanıb.

Əmrdə rayon, şəhər baytarlıq idarələrinin rəislərinə tapşırılır ki, Qurban bayramı ilə əlaqədar olaraq heyvanların kütləvi halda satışı və kəsimi üçün xüsusi ayrılmış yerlərdə heyvanların sağlamlığının müəyyən olunması, həmçinin baş verə biləcək təhlükəli xəstəliklərin qarşısının alınması, ət və ət məhsullarının qanunvericiliklə müəyyən edilmiş qaydada baytarlıq-sanitariya ekspertizasının aparılmasına dövlət baytarlıq nəzarətini gücləndirsinlər. Bu məqsədlə heyvan satışı və kəsimi yerlərinə baytarlıq mütəxəssisləri təhkim etsinlər.

Həmçinin rayon və şəhərə satış üçün gətirilən iribuynuzlu və xırdabuynuzlu heyvanların sağlamlıqları barədə Baytarlıq Şəhadətnaməsinin olmasının müəyyənləşdirilməsi, bunun nəticəsindən asılı olaraq müvafiq tədbir görülməsi, qurbanlıq heyvanların qəbulunda, saxlanmasında və kəsilməsində baytarlıq-sanitariya qaydalarına ciddi əməl edilməsi tapşırılıb.

YENİ MÜSAVAT
N 179 (6793) 29 avqust 2017

# Hovuzlar çox, təhlükə isə ondan da çox...

## Bakıda uşağını üzgüçülük kursuna yazdırmaq istəyən valideynlərə qızıl kimi məsləhətlər

**Bugünlərdə çox adam hovuzların xidmətindən istifadə edir. Yay fəslində sərinləmək və əylənmək üçün hovuzların rolu danılmazdır. Hovuzların təmizliyi və gigiyenası isə diqqət edilməsi lazım olan ən vacib məqamlardan biridir.**

Mütəxəssislərə görə, təmizliyi aparılmayan və sistemli olaraq xlorlanmayan hovuzlar hepatit növlərindən tutmuş, ishala, genital xəstəliklərə, infeksiyalara qədər bir çox problemlərə gətirə bilər. Musavat.com xəbər verir ki, hovuz səfası edən insanların diqqət etməli olduğu məqamlar aşağıdakılardır:

**1.** Bədəninizdə üstü açıq bir yara varsa, hovuza girməyi bir müddət təxirə salmanız vacibdir. Hovuz suyundakı mümkün mikroblar açıq yaranızın iltihablanmasına səbəb ola bilər. Bu səbəbdən də yaranız sağalana qədər hovuzdan uzaq durmalısınız.

**2.** Hovuza mütləq dəniz eynəkləri taxaraq girin. Bu eynək sayəsində xlordan gözlərinizin yanmasının və qıcıqlanmasının qarşısını ala bilər, onları mümkün mikroblardan qoruya bilərsiniz.

**3.** Girdiyiniz hovuzun xlor miqdarı haqqında məlumat ala bilərsiniz. Xlor miqdarının milyonda 1 və 3 arası olması ən ideal səviyyə olaraq bilinir. Bununla paralel olaraq sudakı PH səviyyəsinin də 7.1 ilə 7.8 arasında olması göz və dəri sağlamlığı baxımdan önəm daşıyır.

**4.** Hovuza girmədən öncə və çıxdıqdan dərhal sonra duşa girmək infeksiyaya yoluxma riskini minimuma endirir.

**5.** Hovuzda üzmədən ancaq sərinləmək istəyənlər də Günəş eynəyi taxmalıdırlar. Hovuz içində uzun saatlar keçirənlərin Günəş eynəyi taxaraq göz sağlamlıqlarını qorumaları vacibdir.

**6.** Hovuza ayaq basmadan öncə ayaqları su dolu bir səhəyə salaraq təmiz qalması üçün önəm daşıyır.

**7.** Hovuzdan çıxandan sonra yaş çimərlik paltarını qurusu ilə dəyişdirmək də infeksiyaya yoluxmanın qarşısını önəmli dərəcədə alır.



**8.** Hovuzdan çıxandan sonra çimərlik paltarlarını sabunlu su ilə yumaq onların təmizliyi və mikroblardan qorunmaq baxımından çox vacibdir.

**9.** Hovuzun təmizliyinin sistemli bir şəkildə edilib-edilmədiyini öyrənərək hovuz seçiminizi edə bilərsiniz. Hovuz kənarındakı lövhələrə baxaraq və ya səlahiyyətli nümayəndələrlə əlaqəyə girərək hovuz təmizliyi və qaydalar barədə məlumat almaq da faydalıdır.

**10.** Uşaqların hovuza tualetlərini etməmələrinə və su udmamalarına diqqət edilməlidir. Valideynlərin bu məsələdə diqqətli olması hovuzun təmizliyinə müsbət mənada təsir edir.

### Əsas məsələ hovuzun təmizliyidir - gözlə görmək mümkün

Bakıda üzgüçülük kursları çox, tariflər və şərtlər isə fərqlidir. Valideynlər hazırda ən təmiz və qiymətinə görə münasib olan hovuzların axtarışındadır. Məlum məsələdir ki, valideynlər əsasən uşaqlarının sağlamlığına, səhhətindəki hansısa problemlərə görə, həkim təyinatı ilə bu kurslara göndərilir.

Amma bir çox hallarda hovuzlardakı hansısa problem, antigigiyena məsələsi səhhətə birbaşa təsir edir. Ümumilikdə isə üzgüçülük hovuzları qapalı hövzə olduğundan orada xüsusi qurğuların quraşdırılması vacibdir. Çünki hovuz suyunun dövriyyəsi mikrobların yığılmasının qarşısını alır. Həm də suda qoxunun əmələ gəlməsini əngəlləyir.

Ümumilikdə isə hovuzun nə dərəcədə təmiz olub-olmadığını müəyyənləşdirmənin adi üsulları var. Suyun rənginin bulanıqlığı, hər hansı qoxu, yaxud dibində çöküntünün olması hovuzun təmizlənməsi vaxtının gəldiyindən xəbər verir. Bundan başqa, hovuzdan istifadə edən hər kəsin sağlamlığı haqqında arayışı olmalıdır. Sağlamlıq kağızında əsasən göbələk xəstəlikləri və bağırsaq qurdlarının olmaması göstərilməlidir.

Bundan başqa, qadın və kişilərin müxtəlif günlərdə belə olsa, eyni hovuza girmələri həkimlər tərəfindən düzgün hesab edilmir. Dəri xəstəliyinə yoluxmamaq üçün dərisində kiçik də olsa yarası, kəsiyi olanın hovuza girməməsi məsləhətdir. Çünki mikroblar açıq yaralara daha çox təmas edir. Bundan başqa, hovuza xüsusi üzgüçülük papaqları ilə daxil olunması baş dərisini də qoruyur. Suyun tərkibindəki kimyəvi dərmanlar saçın tökülməsinə də yol aça bilər.

### Üzürsənsə, orqanizmində bunlar baş verir

Ümumilikdə isə üzmək təkcə ürək döyüntümüzü nizamlamaz, yaş ötdükcə orqanizmimizin zəifləməsi zamanı yarana biləcək xəstəlikləri, ürək infarktı riskini azaldır. Qaçış zamanı ayaqlarımıza, oynaq və sümüklərimizə zərər verə bilərik. Üzmə isə əksinə, su ilə sərt rəftar zamanı belə bizə o qədər ziyan verməz. Hətta yaralanmalar, ayaq burxulması zamanı üzmə reabilitasiya kimi məsləhət görülür. Üzgüçülük bütün bədəni çalışdıran bir idman növüdür. Vücudun hər bölgəsinin kalori itirməsinə səbəb olur. Eyni zamanda boyun, çiyin, qol və ayaq elastikliyini təmin edir. Əgər əhval-ruhiyyəniz yerində deyilsə, hovuza girsəniz üzmək əhvalınızı qaldırar.

Depressiv və əsəbi halda belə üzməyin böyük köməyi olur. Hamiləlik zamanı da əks göstəriş yoxdusa, üzmək faydalıdır. Üzmək uzunömürlü olmağa kömək edər. 32 yaşında olan 40 min insan üzərində aparılan araşdırmalar zamanı yürüş edənlər və hərəkətsiz qalanlardan daha çox, üzgüçülüklə məşğul olanların daha uzun yaşadığını isbat edib.

Üzmə ağciyər funksiyalarının inkişafına kömək edər, əgər oynaqlarında problemi olan insanlar üzmə məşqləri edərlərsə, ağrı nəinki azalar, hətta aradan belə qalxar.

### Üzmək bahalı xobbi imiş

Yaxşı, bəs yay aylarında uşaqlarımızı hansı üzgüçülük hovuzlarına və neçəyə apara bilərik? Şərtlər, tariflər necədir? "Yeni Müsavat" şəhərdəki bir neçə üzgüçülük hovuzları arasında reyd keçirib.

Su İdman Sarayında dərslər səhər saat 08.00-dən başlanır. Həmin saatdan 15.00-a qədər müddəti 45 dəqiqə olmaqla, həftədə 2 dəfə dərs 30 AZN məbləğindədir. Saat 16.00-dan sonra keçirilən dərslər üçünsə aylıq ödəniş 40 AZN-dir.

Sərhədçi İdman Olimpiya Mərkəzində həftədə 3 dəfə olmaqla, keçirilən dərslər üçün aylıq 50 AZN ödəmək lazımdır. Bu mərkəz həftənin tək günləri oğlanlar, cüt günləri isə qızlar üçün nəzərdə tutulub.

"Veqas" İdman Sağlamlıq Mərkəzində isə 12 yaşına qədər oğlanlar üçün həftədə 2, ayda 8 dəfə üzgüçülük dərsi 40 AZN-ə başa gəlir. Həftədə 4, ayda 16 dərsin qiyməti isə 70 AZN-dir. Qızlar üçünsə bu tarif daha aşağıdır. Belə ki, həftədə 4, ayda 16 dərsin qiyməti 60 AZN-dir. Burada dərslər səhər saat 9.30-dan başlanır.

Astoria Fitnes Mərkəzində isə həftənin bütün günlərində dərslər var. Səhər saat 9-dan günorta 15.00-a kimi, həftədə 3 dəfə olmaqla, aylıq kursun məbləği 48 AZN-dir. Amma uşağınızı məşqçi ilə hazırlaşdıracaqsınızsa, bunun üçün də əlavə 40 AZN ödəməlisiniz. Saat 15.00-dan sonra keçirilən kursların isə aylıq məbləği 60 AZN-dir. Məşqçi pulunu da əlavə edəndə 100 AZN.

Aquaparkda (Rəşid Behbudov küçəsi, Xarici Dillər Universiteti ilə üzbəüz) həftədə 2 , ayda 8 dəfə dərs üçün aylıq 70 AZN ödəmək lazımdır. Həftədə 3 dəfəlik kurslar üçünsə 80 AZN lazım gələcək. Amma dərsdə məşqçi yardımına ehtiyac varsa, bunun üçün də hər dərsə əlavə 3 AZN ödənməlidir. Burda hovuz ümumidir, qadın-kişi-uşaq fərqi olmadan səhər saat 7-dən 22.30-a qədər fəaliyyət göstərir.

F Land Hovuzda isə 12 yaşa qədər uşaqlar üçün həftədə 3, ayda 12 dəfə olmaqla, üzgüçülük kurslarının aylıq məbləği 50 AZN-dir. 12 yaşdan böyük uşaqlar üçünsə bu qiymət 60 AZN-dir.

Atrium İdman Əyləncə Mərkəzində də vəziyyət fərqli deyil. 12 yaşa qədər uşaqlar üçün həftədə 2 dəfə olmaqla, ayda 8 dəfə dərs üçün aylıq 40 AZN, həftədə 4 dəfə olmaq üzrə ayda 16 dəfə dərs üçünsə 60 AZN ödəmək lazımdır.

12 yaşdan yuxarı uşaqlar üçünsə qiymətlər daha yuxarıdır. Belə ki, həftədə 2 dəfə, ayda 8 dəfə olmaqla, aylıq kurslar 50 AZN, həftədə 3 dəfə, ayda 12 dəfə olmaqla, kurslar isə 80 AZN-dir.

❑ **Sevinc TELMANQIZI**

# Payız başlamayıb, paltarlar isə 100 faiz bahalaşıb

## Bu ilin dəbi olan ziyafət geyimlərinin qiyməti 150 manatdan başlayır

**Payız fəslinin gəlişinə artıq az müddət qalıb. Bu isə o deməkdir ki, qarderobumuzdakı yay paltarlarını yavaş-yavaş payız-qış paltarları ilə əvəz etməliyik. Deməli olar ki, bütün geyim mağazalarında yay paltarlarına endirimlər edilib. Çünki artıq onların yerini payız paltarları alır. Təbii ki, qarderobunu yeniləyən hər bir qadın və kişi öncə bu fəsildə hansı paltarların, rənglərin dəbdə olacağı ilə maraqlanır.**

2017-2018 payız-qış kolleksiyası artıq dünya modelyerləri tərəfindən açıqlanıb və satışda bu ilin dəbi olan paltarlar yer almaqdadır. Ölkəmizdə artıq bir ənənədir ki, yeni sezon başlayanda qiymətlər də elə "ceyran belinə" çıxır. Biz də bu ilin dəbi olan paltarların qiymətini öyrənmək üçün bir neçə geyim mağazasına üz tutduq.

İlk olaraq "Torqovi" adlanan Nizami küçəsində yerləşən geyim mağazalarına baş çəkdik. Burada bu ilin dəbi sayılan bir-birindən gözəl gündəlik və ziyafət geyimləri vardı. Ancaq iki rəqəmli bir qiymətə rast gəlmədik. Burada gündəlik geyimlər 100 manatdan, ziyafət geyimləri isə 150 manatdan başlayırdı. 60-70 manata şalvarlar almaq mümkündür. Bu ərazi bahalı hesab olunduğu üçün «Neftçilər» metrosu yaxınlığındakı mağazalara da baş çəkdik. "X Lady" qadın geyimləri mağazasında yay paltarlarına 50 faiz endirim olsa da, payız paltarlarında qiymətlər olduqca baha idi. Sadə bir don 13, köynəklər isə 80-90 manata yaxındır. Bu ilin dəbi olan ziyafət geyimlərinin isə qiyməti 150 manatdan başlayaraq artırdı. Digər mağazalarda isə bu ilin dəbi olan işgüzar xanım geyimi qara klassik şalvar və ağ kofta dəsti 135 manata satılırdı.









**Alıcılar payız paltarlarını indi almaq istəsələr də, qiymətlər buna imkan vermir. Onlar yeni dəb olduğu üçün qiymətlərin bu qədər baha olduqları düşüncəsində idilər. Alıcı Lalə Quliyeva deyir ki, bir aydan sonra qiymətlər enəcək:** "Həmişə belə olur. Sezon başlayanda qiymətlər baha olur. Bir müddət sonra enir. Həm də indi düşünürlər ki, tələbələrin, istirahətə gedənlərin qayıdan vaxtıdır. Ona görə bahadır. Kimdir bu bahalıqda paltar alan".

**Digər alıcı Cəmilə Məmmədova isə yayın paltarını payızda, payızınkını da yayda aldığını dedi:** "Gördüyünüz bu gözəl yay donu bir ay əvvəl 102 manat idi, indi isə 51 manata qoyublar. Mən bunu alacam və gələn yay geyinəcəyəm. Bu, gələn yayda qoyulacaq baha qiymətə. Ən yaxşısı endirimə düşən kimi paltar almaqdır. Payız paltarlarını da elə edirəm. Xanımlara da belə etməyi tövsiyə edərdim, çünki sərfəli olur".

**Satıcı Nigar İbrahimova bu ilin dəbinin mağazalara tam olaraq sentyabrın ilk ongünlüyündə gələcəyini dedi:** "Payız geyimləri indi də mağazamızda yer alır. Ancaq bu ilin dəbi olan pencəklər, dəri gödəkcələr, plaşlar sentyabrdan mağazalarda olacaq. İndi ancaq koftalar, şalvarlar, donlar və az sayda da çantalardır".

**Payız-qış kolleksiyasında hansı tip geyimlərin və rənglərin dəbdə olacağına gəlincə isə modelyerlər öz kolleksiyalarında gülməxmər, ötən ildə olduğu kimi velyur, cins, dəri parçalardan məharətlə istifadə ediblər.** Geyimlərdə istifadə edilən məxmər, krujeva, dəri və xəz detallarının birləşdiyi obraz sanki orta əsrlərin geyimləri ilə müasir dövrün elementlərini eyni "look"da birləşdirir.

Bu il geyimlərdə ən çox neytral tonlardan istifadə olunacaq. Boz rəng hər zaman olduğu kimi öz gözəlliyini, eyni zamanda yumşaq olduğunu geyimlərdə nümayiş etdirəcək. Parlaq günəş sarısı və yaşıl rəngli çalarlar payız mövsümünün ən dəbli rənglərindən olacaq. Bu il dinamik qırmızı rəng də dəbdə olacaq. Bu rəng canlı və diqqət çəkən bir rəng olmaqla fəsilə bir hərəkətlilik qatacaq. Bu rəng Nyu-York moda həftəsində sıxlıqla istifadə edilib. Payıza ən çox yaraşan, tonunu təbiətdən almış olan payız yarpaq rəngi bu payız-qış kolleksiyasında yer alıb. Yaşıl, tünd qırmızı, ebru və qara kimi bir çox rənglə kombinə edilə bilən rəng olma xüsusiyyətini daşıyır. Gözü yormayan, əksinə, yumşaq bir rəng olan payız rəngi stilistlər tərəfindən trend rənglər arasında göstərilir.

Tünd yaşıl və okean tündlüyü olan rənglər isə kürklərdə və gödəkçələrdə çox istifadə olunub. Bundan başqa, əsasən çox yüksək olmayan şəffaf dabanlar, fərqli rənglərin qarışımı bu il dəbdə olacaq.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

Son səhifə

N 179 (6793) 29 avqust 2017





## Göbələk sayəsində 5 milyon dollar qazandı

Amerikanın Nyu-York ştatındakı Saranak-Leyk kənd sakini hesab edir ki, göbələklər sayəsində lotereyadan 5 milyon dollar udub. Bu barədə lenta.ru saytı UPI-yə istinadən xəbər verir.

56 yaşlı Con Lyuis atasının reseptinə əsasən, spagetti üçün sous hazırlamaq istəyib. Bunun üçün cəmi bir inqridient - göbələk çatmırmış. O, göbələk almaq üçün mağazaya gedib və alıb. Pulun qalığı olaraq ona lotereya bileti veriblər. Nəticədə isə bilet uduşlu çıxıb. Luis qərarlaşdırıb ki, birdən-birə 5 milyon dollar almasın. Onun əvəzində o, pulu hissə-hissə, ildə 172 min dollar olmaq üzrə alacaq. Kişi aldığı pulun bir hissəsini qohumunun müalicəsinə həsr edəcək. Amma qalan məbləğlə nə edəcəyi barədə düşünməyib. "Mən ölənə qədər hardasa çalışmağı düşünürdüm. Amma bu pullar mənim qarşımda daha bir neçə qapı açacaq. Biz indi də öz həyatımızdan məmnunuq. Bu, çox yaxşı həyatdır".

Avqustun 25-də isə xəbər verilib ki, Massaçuset xəstəxanasının işçisi Mevis Vançik ABŞ tarixindəki ən böyük cekpotu udub. Bu, 758.7 milyon dollar olub.

# Bu adam hər yerə gecikir

İşinə, dostları ilə görüşə, bütün iş görüşmələrinə hər zaman gecikən amerikalı Cim Dunbarın "xroniki gecikmə xəstəsi" olduğu üzə çıxıb. Ninevell Xəstəxanasındakı görüşə 20 dəqiqə gecikən 57 yaşındakı Dunbarda diqqət azlığı, hiperaktivlik problemi özünü göstərir. Həkimlər bunun beyindəki hansısa problemdən yaranmış olacağını təxmin edir. Onların dediyinə görə, bu adam işlərinin nə qədər vaxt aparacağını hesablaya bilmir.



Jim Dunbar bildirib ki, məhz bu problemə görə bir çox işini itirib. Axşam saat 7-dəki kinoya gedə bilmək üçün səhər tezdən qalxan Cim hazırlaşmaq üçün özünə 11 saat versə də, yenə də kinoya düz 20 dəqiqə gecikir. Müalicəyə baxmayaraq, Dunbar hələ də gecikməmək üçün mücadilə verir.

## Həm təyyarədir, həm də restoran



Çinin Vuhan şəhərində bir investor tərəfindən 35 milyon yuana satın alınan "Boeing 737" tipli təyyarə restorana çevrilərək Guanggu küçəsində fəaliyyət göstərməyə başlayıb. İçində 20 masanın yerləşdiyi təyyarə-restoranda qarsonlar müştəriləri stüardessa geyimində qarşılayırlar.

## Londonlunun yatağına tülkü girdi



London sakini Leon Smit çarpayısında tülkü tapıb. Lenta.ru saytının xəbərinə görə, balaca tülkü evə pişik üçün nəzərdə tutulmuş xüsusi qapıdan girib. Səhər yuxudan oyanan kimi kiminsə ona toxunduğunu hiss edən Leon bunun sevgilisi olduğunu düşünüb. Toxunuşa cavab vermək üçün əlini uzadanda isə tülküyə toxunub. Smit dərhal yuxudan oyanıb, yatağında o qədər də böyük olmayan tülkünü görüb. Britaniyalının dediyinə görə, tülkü özünü olduqca sakit aparıb və sadəcə, ona baxıb.

Leon heyvanın şəklini çəkməyi bacarıb. Cəmi 10 dəqiqə Leonun evində qonaq olan tülkü bu dəqiqələr ərzində ancaq ev sahibinə baxıb. Smit isə onu öncə yatağından, sonra isə evindən qovub.

## Keçəl kişilər saçlılardan daha...

ABŞ-ın Pensilvaniya Universitetinin araşdırmasına görə, keçəl kişilər saçlı həmcinsləri ilə müqayisədə daha dominantdır. Araşdırma qrupunun rəhbəri Albert Mannes "Time" jurnalına açıqlamasında bildirib ki, araşdırmanı 3 mərhələdə gerçəkləşdiriblər.

A.Mannesin dediyinə görə, araşdırmanın ilk hissəsində rəyi soruşulanlara fərqli saçlara sahib 60 nəfərin şəkilləri göstərilib. Rəy sorğusuna qatılanların verdiyi ballara müvafiq olaraq bir-birinə yaxın illərdə dünyaya gəlmiş kişilərin keçəl olanları "ən güclü"lər olaraq qiymətləndirilib. İkinci mərhələdə isə sorğuya qatılanlardan eyni kişinin saçlı və saçsız halını göstərən şəkilləri dəyərləndirmələri istənilib. Nəticələrə görə, kişilərin saçsız görüntüsü saçlı görüntüsünə görə çox daha dominant olaraq qiymətləndirilib. Üçüncü mərhələdə isə anket iştirakçıları deyib ki, əslində onlar keçəl kişilərin daha xarizmatik və güclü olması qənaətindədirlər.




**QOÇ** - Maddi durumunuzu yaxşılaşdırmaq üçün bütün bacarığınızı işə salın. Yalnız bu halda büdcənizi artıra bilərsiniz. Fəaliyyətlə bağlı uğurlarınız artıq yaxınlaşmaqdadır.

**BUĞA** - Bəzi sınaqlarla baş-başa qala bilərsiniz. Şəxsi işlərinizə müdaxilə edən adamlardan uzaq olmağa çalışın. Hər hansı mübahisə və ya qisasçılıq prinsipiniz başağrınıza səbəb ola bilər.

**ƏKİZLƏR** - Daxili sıxıntılarınızdan əsər-əlamət qalmayacaq. Ətrafda baş verən hər bir hadisə sizə sevinc bəxş edəcək. Bu maraqlı təqvimdə şəxsi büdcənizdə müəyyən artımlar da gözlənilir.

**XƏRÇƏNG** - Qarşınızda duran vəzifələrin çoxluğu kifayət qədər yorulacağınızdan xəbər verir. Lakin öhdəliklərinizin müsbət nəticəyə xidmət etdiyini anlayıb passivləşməyin. Nikbin olmağa çalışın.

**ŞİR** - Bütün gücünüzü iş prinsipinə həsr edin. Müvəffəqiyyətə yetişmək üçün bu, başlıca amildir. Tərəddüd etdiyiniz məsələlərdə qəti addım atmayın. Kənar təsirlərə aludə olmayın.

**QIZ** - Nahara qədər bütün vacib işlərinizi - xüsusən də maliyyə məsələlərini yekunlaşdırın. Mənasız söhbətlərə isə əhəmiyyət verməyin. Gün ərzində mənfi enerjili Ay bürcünüzdə olacaq.

**TƏRƏZİ** - Bu gün sizin üçün neytral bir təqvim olacaq. Hansısa qeyri-adi hadisə ilə rastlaşacağınızı düşünməyin. İqlimin təhərindən asılı olaraq, sağlamlığınıza da diqqəti artırın.

**ƏQRƏB** - Yeni əlaqələr yaratmaq üçün geniş imkanlar qazanacaqsınız. Qarşıdakı bir ayda atacağınız addımları indidən götür-qoy edin. Nahar ərəfəsində aldığınız təkliflərə ciddi yanaşın.

**OXATAN** - Şəxsi büdcənizin durumu imkan versə, doğmalarınız yaşayan ünvanlara baş çəkin. Əks təqdirdə, digər məsələlər ürəyinizcə olmayan istiqamətdə cərəyan edəcək. Hündür yerə çıxmayın.

**OĞLAQ** - Olduqca rəvan gündür. Ulduzlar müdafiənizdə durduğundan qarşıya qoyduğunuz ədalətli məqsədləri reallaşdıra biləcəksiniz. Maraqlı adamlarla rastlaşma ehtimalınız da var.

**SUTÖKƏN** - İkitərəfli əməkdaşlıq zəminində müəyyən irəliləyişlərə nail olmaq üçün şans qazanacaqsınız. Amma tam bələd olmadığınız proseslər barədə qəti söz demək fikrindən yayınmalısınız.

**BALIQLAR** - Astroloji göstəricilər gün ərzində maddi durumunuzun yaxşılaşacağını bəyan edir. Günün ikinci yarısı isə bu istiqamətdə xüsusilə əlverişlidir. Aldığınız dəvətlərdən imtina etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Sərxoş özünü ölülüyə vurdu, polis "ayıltdı"



Rusiyanin Kuban vilayətində maraqlı bir hadisə baş verib. 24 yaşlı kubanlı bir ad günü məclisindən gəldiyi üçün sərxoş vəziyyətə düşüb və hərəkət etməkdə çətinlik çəkib. Heç olmasa qatara qədər kiminsə onu daşıması ümidi ilə gənc özünü ölülüyə vurub. Amma onu öncə poliklinikaya, ardınca isə polisə aparıblar. Sonuncu instansiyada gəncə xuliqanlıq maddəsi ilə cinayət işi açılıb və 15 sutka həbs cəzasına məhkum olunub. Polis gəncin bu davranışını "insanların hissləri ilə oynamaq" kimi xarakterizə edib.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100